RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 194 (8510) CÜMƏ AXŞAMI, 24 sentyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# İLHAM ƏLİYEV qlobal layihələrini yeni çağırışlara uyğun reallaşdırır

## Prezident Azərbaycanın postpandemiya dövründə ən hazırlıqlı dövlətlər sırasına yüksəlməsi üçün bütün imkanları dəyərləndirir

**Qlobal böhran dünya iqtisadiyyatına böyük zərbə vurmaqda davam edir. Aparıcı maliyyə təşkilatları bəyan edirlər ki, pandemiya nəticəsində yaşana biləcək böhran 2008-2009-cu illərin böhranından daha ağır olacaq. Neftin qiymətinin də aşağı düşməsi faktını nəzərə alsaq qarşıdakı dövrdə ciddi qlobal iqtisadi böhranın yaşana biləcəyini söyləyə bilərik. Ona görə də əksər dövlətlər postpandemiya dövrü üçün hazırlıqlara başlayıblar. İqtisadiyyatın dayanıqlığının qorunub saxlanması istiqamətində proqramlar, layihələr hazırlanır, islahatlar aparılır.**

Həyata keçirdiyi iqtisadi islahatlarla möhkəm iqtisadi baza formalaşdıran Prezident İlham Əliyev də bu istiqamətdə mütərəqqi qərarlar qəbul etməkdədir. Dövlət başçısının son aylarda iqtisadiyyatın liberallaşdırılması istiqamətində verdiyi qərarlar, yaratdığı yeni iqtisadi qurumlar ölkəmizin postpandemiya dövründə hərtərəfli inkişafını şərtləndirəcək mütərəqqi addımlardır.

### İqtisadi azalma fonunda reallaşan layihələr

Bu bir həqiqətdir ki, qlobal böhran ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təxminən 20-30 faiz həddində mənfi təsir etdiyi halda, Azərbaycan iqtisadiyyatında cəmi 2,8 faiz azalma var. Bu azalma fonunda ölkədə heç bir sosial layihə təxirə salınmayıb. Hətta əvvəlki illə müqayisədə bu il daha çox layihələr reallaşdırılıb.

Dövlət pandemiyanın fəsadlarına, neft gəlirlərimizin azalmasına baxmayaraq, heç bir sosial layihəni ixtisar etməyib. Bununla yanaşı, həm pandemiya ilə mübarizə tədbirləri davam etdirilib, həm də bu dövrdə vətəndaşlara böyük sosial paket təqdim edilib. Bu il 5 milyona yaxın vətəndaş dövlət tərəfindən dəstəklənib və bu proses indi də davam etdirilir. Yəni iqtisadiyyatdakı fəallığın azalmasına baxmayaraq, reallaşdırılan sosial layihələr bir daha Azərbaycanın sosial dövlət olduğunu təsdiqlədi.

Bununla yanaşı, Azərbaycan regionda transmilli layihələrin həyata keçirilməsində mühüm rol oynamaqda davam edir. İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən və Azərbaycanın iştirakı ilə reallaşan layihələrdə ölkəmiz üzərinə düşən öhdəlikləri böhran şəraitində də davam etdirir.

Sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra jurnalistlərə müsahibə verən İlham Əliyev bir daha bu məsələlərə toxunaraq, Azərbaycanın gördüyü işləri dəyərləndirdi. Layihələrin icrasının uğurla getdiyini söyləyən Prezident dedi ki, ölkəmizin əsas gəlir mənbəyi "Azəri", "Çıraq", "Günəşli" yataqlarıdır.

Ardı 3-cü səh.

## Azərbaycan gücündən istifadə edərək ərazi bütövlüyünə nail olacaq

### İlham Əliyev ölkəmizin qətiyyətli mövqeyini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı

Ermənistan işğal siyasətini davam etdirməklə Cənubi Qafqazda ciddi təhdidlər yaradır. İşğalçı ölkə beynəlxalq hüquqa qarşı olduğunu da nümayişkaranə şəkildə meydana qoyur. Beynəlxalq qurumların isə məsələ ilə bağlı müvafiq addımlar atmaması vəziyyəti daha da kəskinləşdirir, BMT-nin qərarlarının kağız üzərində qalması təhlükənin miqyasını artırır. Azərbaycan hələlik beynəlxalq hüquqa sadiq qalaraq Ermənistanla olan problemin danışıqlar yolu ilə həllini istəyir.

BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli iclasında Azərbaycan Prezidenti İlham Əliyev bu xüsusda deyib: "Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir. Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanın növbəti hərbi təcavüzdən çəkindirilməsinə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Ermənistan-Azərbaycan münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində və BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında həll edilməlidir".

Bununla Prezident İlham Əliyev Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ölkəmizin qətiyyətli mövqeyini bir daha dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Ardı 5-ci səh.

## Gözəlləşən Balaxanı qəsəbəsinin yeni dövrü başlayır

### Bax, budur, "qara qızıl" insan kapitalıdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sentyabrın 23-də Bakının Balaxanı qəsəbəsində aparılan abadlıq işləri ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya Balaxanı qəsəbəsində aparılan abadlıq işləri barədə məlumat verildi.

Bildirildi ki, burada görülən işlər qəsəbənin qədim və XX əsrin əvvəllərinə aid olan hissəsini əhatə edir. Qəsəbədəki tarixi memarlıq abidələrinin bərpası, ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görülüb. Qəsəbədəki Mirzə Ələkbər Sabir adına park da bərpa olunub.

Diqqətə çatdırıldı ki, Balaxanıdakı Şah Səfi karvansarayı 1635-1636-cı illərdə inşa olunub. Bu tarixi abidə yerli əhəng daşı materiallarından tikilib və əhali arasında Xacə Ruhulla imarəti kimi tanınıb.

Qeyd edək ki, Balaxanı Bakının ən qədim yaşayış yerlərindən biridir. XX əsrin əvvəllərindəki neft bumuna qədər Balaxanı Böyük İpək Yolunun üstündə yerləşdiyindən strateji mövqeyə sahib idi. Uzun əsrlər boyu bu yer Çindən İspaniyaya qədər uzanan karvan yolunun əsas məntəqələrindən biri olub.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya qəsəbədəki Hacı Şəhla Məscidi və Şakir ağa türbəsinin bərpası barədə də məlumat verildi. Bildirildi ki, Hacı Şəhla Məscidi XIV əsr memarlıq abidəsidir. Şakir ağa türbəsi Balaxanı abidələrinin ən qiymətlilərindən hesab olunur.

Qəsəbədəki Ovdan XIV əsrdə inşa olunub. Ovdanın mənbəyindən su götürmək üçün 40 pilləkən aşağı enmək lazımdır. Keçmişdə Ovdan vasitəsilə Balaxanının içməli suya olan tələbatı ödənilib.

Balaxanının "Qum hamamı" bir-biri ilə əlaqəli 3 hissədən ibarətdir. Bu hamam da qəsəbənin tarixi tikililərindən hesab olunur. Onun inşası XIV əsrə təsadüf edir.

Məlumat verildi ki, Balaxanı qəsəbəsində vaxtilə 18 hamam olub. Demək olar ki, hər məhəllədə hamam inşa edilib və onlar həm adlarına, həm də memarlıq üslubuna görə bir-birindən fərqlənib.

Dövlət başçısı və birinci xanım əncir dərdilər, göyərçinlərə tamaşa etdilər.

Bakının bu qədim qəsəbəsi artıq yeni turizm marşrutu kimi təsdiqlənib. Bu, qəsəbədə yeni sahibkarlıq subyektlərinin, xüsusilə sənətkarlıq, xidmət və ticarət istiqamətlərində biznesin qurulmasını təşviq edəcək. Son zamanlar çoxsaylı internet səhifələrində və sosial media platformalarında Balaxanı qəsəbəsi ilə bağlı yayılan fotolar İtaliyanın məşhur "Si Viaggia" səyahət portalının diqqətini cəlb edib. Portalda "Turistləri və bloggerləri heyran edən Azərbaycan qəsəbəsi" adlı yazı da dərc olunub.

Onu da deyək ki, abadlıq prosesi həm də yerli sakinlər üçün yeni iş yerləri deməkdir. Prosesdə iştirak edənlərin 70 faizi məhz yerli sakinlərdən ibarət olub.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Balaxanı sakinləri ilə görüşdülər.

Sakinləri salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Balaxanı kəndinin yeni dövrü başlayır. Mən bu münasibətlə sizi təbrik edirəm. Bilirsiniz ki, Balaxanıya mənim xüsusi diqqətim var. Hələ bir neçə il bundan əvvəl məşhur Balaxanı zibilxanasının təmizlənməsi, aradan qaldırılması artıq burada görülən ekoloji işlərə start verdi. Çünki bu, həm Balaxanı sakinlərinə böyük əziyyət verirdi, həm də, əlbəttə ki, bütövlükdə, Bakı şəhərinin sakinlərinə çox mənfi təsir edirdi. O zibilxanadan qalxan tüstülər faktiki olaraq havanı böyük dərəcədə çirkləndirirdi və insanların sağlamlığı üçün də bunun böyük ziyanı olmuşdur. Mən bu yaxınlarda həmin o layihə ilə bağlı televiziyalara müsahibəmdə öz sözlərimi dedim, təkrar etmək istəmirəm, vaxtilə zibilxana olmuş yer indi gözəl bir poliqona çevrilib və iş yerləri yaradılıb. Burada sənaye parkı, zibilyandırma zavodu fəaliyyət göstərir. Eyni zamanda, onun yanında yerləşən Böyükşor gölünün böyük hissəsi də artıq təmizlənib və gölün üzərindən yol da çəkilib. Ona görə indi gediş-gəliş üçün də yaxşı imkanlar yaradılıb.

O ki qaldı, işlərin bu mərhələsinə, o da göz qabağındadır. Bütün işlər böyük məhəbbətlə, zövqlə görülübdür. Həm infrastruktur layihələri, kanalizasiya, insanların rahatlığı üçün yaradılmış şərait, elektrik xətləri, binaların təmiri, dam örtükləri, yollar, küçələr, estetik görünüş - bütün bunlar bir məqsədlə edilir ki, burada yaşayan insanlar özlərini rahat hiss etsinlər, onlar üçün yaxşı şərait yaradılsın.

Ardı 2-ci səh.

◆ Milli maraqlar naminə əməkdaşlıq

## İslahatların daha da dərinləşməsinin tərəfdarıyıq

### Abutalıb SƏMƏDOV: "Prezident İlham Əliyevin apardığı düzgün siyasəti dəstəkləyirik"

**Son dövrlər həyata keçirilən islahatlar cəmiyyətimizin bütün sferalarında pozitiv yeniliklərə gətirib çıxarıb.**

İslahatların həmçinin siyasi sferada da yeni konfiqurasiyanın formalaşmasına səbəb olması əsas reallıqlardan biridir. Bu baxımdan hakimiyyətlə müxalifət arasında yeni dialoq mühitinin yaranması, müxalifət təmsilçilərinin parlament idarəçiliyində iştirakçılıq imkanlarının artırılması respublikamızın siyasi həyatının mühüm hadisələri kimi nəzərdən keçirilir. Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədovla söhbətimiz də bu barədədir.

Ardı 6-cı səh.

## «OPEC+» öhdəliklərinə sadiqdir

Xəbər verildiyi kimi, bu il sentyabrın 17-də videokonfrans formatında OPEC Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) növbəti - 22-ci iclası keçirilib. Sentyabrın 16-da isə Birgə Texniki Komitənin (JTC) 44-cü iclası baş tutub.

JMMC Birgə Texniki Komitənin hazırladığı aylıq hesabatı və avqustun 19-da keçirilən son iclasından ötən müddətdə qlobal neft bazarındakı vəziyyəti nəzərdən keçirib. Cari ilin dördüncü rübü və 2021-ci ilədək bazar perspektivləri də müzakirə edilib. Həmçinin bu ilin avqust ayındakı xam neft hasilatına dair məlumatlar nəzərdən keçirilib. "Əməkdaşlıq Bəyannaməsi"nə qoşulan kartelə üzv və üzv olmayan ölkələrin hasilat kvotalarına sadiqliyi üzrə müsbət göstəriciləri alqışlanıb.




JMMC kvotalara tam uyğunluğa sadiq qalmağın və nəzərdə tutulandan artıq istehsal edilmiş neft həcmlərinin ən qısa müddətdə kompensasiya etməsinin əhəmiyyətini vurğulayıb. "OPEC+" sazişi üzrə öhdəliklərinə tam əməl etməyən və nəzərdə tutulandan daha çox neft hasil edən bəzi iştirakçı ölkələrə dair kompensasiya planının müddətinin bu ilin dekabr ayının sonuna qədər uzadılması barədə qərar qəbul edilib.

Ardı 6-cı səh.



## Maşınla pambıq yığımına son hazırlıq işləri görülür

**Tərtər kəndlisi ənənəvi kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi, bu sahədə əvvəlki şöhrətinin qaytarılmasını təmin etmək üçün bütün səy və bacarıqlarını sərf edərək böyük uğurlara imza atır.**

Rayonun pambıqçıları son illər bu sahənin inkişafı sayəsində qazandıqları qabaqcıl mövqeyi inamla qoruyub saxlayırlar. Rayonun fermerləri torpağa nümunəvi qulluq hesabına məhsul bolluğuna nail olmuşlar.

Ardı 7-ci səh.

## Siyasi və hərbi təxribatları Ermənistana baha başa gələcək

**Gələn ay Azərbaycanın dövlət müstəqilliyinin bərpasının 29-cu ili tamam olacaq. Bu dövrdə demokratik, hüquqi və dünyəvi dövlətin qurulması və inkişaf etdirilməsi, yüksələrək dünya birliyində özünə layiqli yer tutması xalqımızın tarixi nailiyyətləridir.**

Bu yüksəlişin göstəriciləri həm də ölkəmizin kosmik kluba qoşulması, qlobal problemlərdən olan enerji təhlükəsizliyində söz sahibinə çevrilməsidir.

### Status-kvonun dəyişməz qalmasının səbəbi Ermənistanın işğalçılıq siyasətidir

Azərbaycan öz yolunu, inkişaf xəttini müəyyən edən bir ölkədir. Lakin onu da qeyd etməliyik ki, ölkəmiz özünün müasir və müstəqil dövlətçilik tarixinə yazılan bu möhtəşəm nailiyyətlərinə müharibə şəraitində - hələ də davam edən Ermənistanın hərbi təcavüzü şəraitində nail olub.

Ardı 5-ci səh.

# Gözəlləşən Balaxanı qəsəbəsinin yeni dövrü başlayır

## Bax, budur, "qara qızıl" insan kapitalıdır








*Əvvəli 1-ci səh.*

Eyni zamanda iş yerləri yaradılıbdır. Mənə verilən məlumata görə, burada yaşayan vətəndaşlar işlərə cəlb olunub. Onlar ağaclar, güllər, kollar yetişdirirlər və eyni zamanda digər yerlərdən də gəlib burada işləyənlər var. Bütövlükdə, bu abadlıq işlərində minə yaxın insan işlə təmin edilib.

Bu, işlərin birinci mərhələsidir. Hələ işlər başa çatmayıb. İşlərin böyük hissəsi başa çatıb. Ancaq hələ görüləsi işlər çoxdur və biz bunları da tədricən edəcəyik. Bir daha demək istəyirəm ki, əsas məqsəd Balaxanıda - bizim bu qədim yaşayış yerində, ölkəmizin qədim yaşayış məskənində insanlar rahat yaşasınlar, daha yaxşı yaşasınlar, işlə təmin olunsunlar, ekoloji vəziyyət yaxşı olsun, hava təmiz olsun, su təmiz olsun.

Əlbəttə ki, tarixi abidələrin bərpası və aşkarlanması da məqsədlərdən biri idi. Bu gün mənə göstərilən tarixi abidələrin bəziləri yerin altında idi. O cümlədən "Qum hamamı", digər abidələr, XIV əsrdə inşa edilmiş abidələr, sovet vaxtında tikilmiş abidələr - onlar da bizim milli sərvətimizdir. Bu abidələr bir daha onu göstərir ki, bu kəndin çox qədim tarixi, qədim mədəniyyəti var. Çünki ancaq yüksək mədəniyyətə sahib olan insanlar belə tikililər inşa edə bilərdilər. O cümlədən ovdan, hamam - bu, mədəniyyət deməkdir.

Əlbəttə ki, Balaxanının gələcək inkişafı ilə bağlı fikirlər var. Artıq həm Bakı, həm də digər şəhərlərin sakinləri buraya gəlirlər, istirahət edirlər, gəzirlər, şəkil çəkdirirlər. Mənə verilən məlumata görə, xarici mətbuatda Balaxanı ilə bağlı materiallar dərc edilir. Avropada, Rusiyada televiziya kanallarında, internet saytlarında buraya maraq böyükdür. Əlbəttə ki, turistlərin axını daha böyük olacaq. Bu da qəsəbə sakinləri üçün yeni imkanlar yaradacaqdır. Yaxşı olardı ki, qəsəbə sakinləri turizmlə bağlı məsələlərdə fəal olsunlar və bu imkanlardan istifadə etsinlər, turizm xidmətlərini qonaqlara təqdim edə bilsinlər. İndi inkişaf etmiş bir çox ölkələrin şəhərlərinin kiçik qəsəbələrində belə turizm, tarixi yerlərdə yerli sakinlər bütün ümumi işlərə qoşulurlar, həm pul qazanırlar, həm öz tarixi, mədəniyyəti haqqında məlumat verirlər, eyni zamanda turistlər üçün də gözəl şərait yaradırlar. Ona görə bu artıq insanların özlərindən asılı olacaq. Təbii ki, dövlət də lazımi kömək göstərəcək. Burada ictimai iaşə obyektləri, kafelər, çayxanalar turistləri cəlb edə biləcək digər obyektlər zövqlə yaradılsın ki, həyat fəal olsun, insanlar daha yaxşı yaşasınlar və xaricdən gələn qonaqlar bu gözəlliyi görə bilsinlər.

Mən bunu demişəm, siz Balaxanı sakinləri də bunu yaxşı bilirsiniz ki, Balaxanının çox böyük tarixi var. Ancaq bu tarix bir növ kənarda qalmışdı. Çünki burada həm ekoloji vəziyyətin pis olması, yolların bərbad vəziyyəti və digər problemlər imkan vermirdi ki, hətta Azərbaycan vətəndaşları da Balaxanı haqqında dolğun məlumata malik olsunlar. İndi isə Balaxanı, necə deyərlər, dünya mətbuatında özünə yer tapıb və bu, hələ başlanğıcdır. Mən demişdim ki, özüm gəlib baş çəkəcəyəm, görülən işlərlə tanış olacağam. Biz Mehriban xanımla elə buna görə gəlmişik. İşlərin böyük hissəsi artıq görülüb. Görüləcək işlər Balaxanının inkişafına daha da böyük təkan verəcəkdir. Sizi bir daha təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

**Əlihəsən VƏLİYEV:** Cənab Prezident, hörmətli Mehriban xanım, qəsəbəmizə göstərdiyiniz qayğıya görə, bir ağsaqqal kimi, sakinlərimiz adından Sizə dərin minnətdarlığımızı bildiririk. Sağ olun, var olun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Çox sağ olun. Burada istedadlı rəssamlar var. Siz rəssamsınız?

**Emin ƏLƏKBƏROV:** Bəli.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Çox gözəl. Bəzi əl işlərinizə baxdım, çox gözəldir, böyük zövqlə yaradılıb.

**Emin ƏLƏKBƏROV:** Çalışmışıq ki, bacardığımızı edək. Yerli sakin olaraq çoxdankı arzularımızı həyata keçirdik, çalışdıq ki, öz potensialımızı göstərək.

**Prezident İlham ƏLİYEV:** Biz də o şəkillərin önündə şəkil çəkdirdik.

**Emin ƏLƏKBƏROV:** Təşəkkür edirik, Sizinlə qürur duyuruq. Mən Balaxanıda olan bütün sənətkarlar, elm adamları, ziyalılar, incəsənət, mədəniyyət xadimləri adından Sizə təşəkkürümü bildirirəm ki, bu cür gözəllikləri yaratmaqda bizə dəstək olmusunuz. Bir daha təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bizim planlarımızda digər qəsəbələrdə görüləcək işlər var, artıq müvafiq göstərişlər verilib. İlkin mərhələdə təqribən 7-8 qəsəbədə buna oxşar layihələr icra ediləcək. Ancaq əlbəttə ki, bunun yüz faiz surəti olmayacaq. Hər bir qəsəbənin özünəməxsus memarlıq üslubu var, tarixi var, tarixi görünüşü var. Ona görə hər bir qəsəbədə aparılan abadlıq işləri gərək yerli sakinlərlə də müzakirə olunsun. İlk növbədə, sakinləri narahat edən problemlər, necə ki, burada infrastruktur - kanalizasiya, dam örtükləri, binaların təmiri, elektrik xətləri, insanların gündəlik qarşılaşdığı digər məsələlər həll olunur. Eyni zamanda təmir-bərpa işləri də mütləq yerli sakinlərin iştirakı və ağsaqqalların tövsiyəsi ilə aparılmalıdır. Çünki ağsaqqallar bu kəndlərin tarixini yaşadırlar, o tarixin canlı şahidləridir. Eyni zamanda gənc nəsil də buna qoşulur ki, hər bir kəndin özünəxas görüntüsü olsun.




**Vüsalə SƏLİMOVA:** Çox sağ olun, cənab Prezident. Balaxanı kəndi dünya mətbuatında neftlə tanınırdı. Bundan sonra isə dünya mətbuatında bu gün Sizin köməyiniz, diqqətiniz nəticəsində aparılan bu gözəl abadlıq işləri ilə, məhz bu gözəlliklərlə tanınacaq. Buna görə də Sizə Balaxanı camaatı adından təşəkkürümüzü bildiririk.

**Elçin RİKABOV:** Şahidi olduğumuz bütün bu gözəlliklərə görə mən də bir Balaxanı sakini kimi Sizə dərin təşəkkürümü bildirirəm.

**Prezident İlham ƏLİYEV:** Balaxanının mer-meyvəsi də gözəldir. Əncirdən dərdik, dadına baxdıq.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Mənim yadıma düşdü, uşaq olanda Pirşağıda bizim bağımız var idi. Əncir tam o əncirdəndir, yaşıl, amma şirin.

**Prezident İlham ƏLİYEV:** Mən dedim, o meyvələri də gərək qoruyasınız. Abşeronun üzüm növləri - "Şanı", "Ağ şanı", "Qara şanı" - indi bunlar azalıb, bəzi hallarda yoxa çıxıb. Amma onlar bal kimi şirin idi, özü də salxımlar qumun üstünə sallanırdı. Gərək biz o növləri unutmayaq, itirməyək. Onlar Abşerona xas olan gözəl nemətlərdir. Ona görə bu da nəzərə alınmalıdır.

**Emin ƏLƏKBƏROV:** Çalışırıq bütün bu deyilənləri yerinə yetirək. Sözsüz ki, burada olan sənətkarlar milli dəyərlərimizi, köklərimizi yaşatmalıdırlar. Siz bizim keramika nümunələrimizi gördünüz. Bizim xalçaçılıq müəssisələrimiz var, burada gənc nəsil iş yerləri ilə təmin olunur. Yəni gənc nəsil açılan bu yerlərdə artıq öz potensialını tətbiq edir və sözsüz ki, onlardan bəhrələnir.

**Prezident İlham Əliyev:** Elədir. Mən dəfələrlə demişəm, hələ Prezident kimi fəaliyyətə başlayanda ilk aylarda bunu demişdim ki, "qara qızılı" insan kapitalına çevirməliyik. Bax, budur, "qara qızıl" insan kapitalıdır. İnsanların rifah halı, sağlamlığı, rahatlığı, təhlükəsizliyi üçün biz neftdən gələn gəlirlərdən istifadə etdik. Deyə bilərəm ki, bu gün biz neftlə zəngin ölkələr sırasında bu siyasətə görə dünya miqyasında qabaqcıl yerlərdəyik. Aparıcı beynəlxalq maliyyə qurumları da qeyd edirlər ki, Azərbaycanda neft insanların rifah halının yaxşılaşmasına xidmət göstərir. Çünki indi yoxsulluğun, işsizliyin azaldılması bunun bariz nümunəsidir. Neftlə zəngin olan ölkələrdə bəzi hallarda işsizlik baş alıb gedir. Səfalət, sosial ədalətsizlik və digər problemlər o ölkələrin cəmiyyətlərində ciddi hal alır. Amma Azərbaycanda neft insanların rifahına, ölkəmizin inkişafına xidmət göstərir.

Balaxanı və Bibiheybət dünyanın ən qədim neft mərkəzidir. Dünyada neft hasilatı buradan başlayıb. İndi Bibiheybət qəsəbəsində də oxşar layihə icra edilir. Biz orada, ilk növbədə, Bibiheybət buxtasını təmizlədik. Yadınızdadır, nə gündə idi? Adam baxanda dəhşətə gəlirdi - qapqara, bütün torpaq qara, dəniz qara, o buruqlar, o dirəklər hamısı qara və elə bil ki, ekoloji fəlakət zonası idi. Amma indi orada park salınıb. Biz Avropa oyunlarının bəzi yarışlarını orada keçirdik. İndi marafon oradan başlayır. Orada incəsənət və idman şəhərcikləri, ölkəmizin ən böyük Su İdmanı Sarayı, bulvar yaradılıb. İkinci mərhələdə isə Bibiheybət qəsəbəsinin abadlaşdırılmasıdır. Orada da işlər gedir. Nə yerdərdir işlər?

"Bakı Abadlıq Xidməti" MMC-nin baş direktoru **Bünyad QASIMOV:** Cənab Prezident, Bibiheybət sözsüz ki, miqyas nöqteyi-nəzərindən buradan balacadır. Qəsəbənin yarısından çox hissəsi artıq abadlaşdırılıb. Hazırda bir küçəmiz qalıb. Orada da kanalizasiya işləri görülüb, bütün elektrik xətləri yerin altına salınıb.

**Prezident İlham ƏLİYEV:** Ora da hazır olanda mənə deyin, gedib baxarıq. Bəli, Balaxanı və Bibiheybət dünyanın ən qədim neft mərkəzləridir. O vaxt Bibiheybətdə mən göstəriş verdim, dedim bütün dünya bilməlidir ki, birinci neft quyusu burada qazılıb. Amma bunu əks etdirən hər hansı bir abidə var, yoxdur? Ona görə təklif etdim ki, orada qədim əşyalardan, tikinti materiallarından abidə kimi neft buruğunun maketi yaradılsın. İndi xaricdən gələn qonaqlar görürlər ki, dünyanın ən qədim neft quyusu harada qazılmışdır, əlbəttə ki, bu yerdə. Mən bu yaxınlarda demişəm, əgər o vaxt Azərbaycan müstəqil olsaydı, əgər o vaxt o neft bizim xalqımıza çatsaydı, bu gün biz dünyanın ən zəngin ölkəsi ola bilərdik. Amma biz müstəqilliyimizi bərpa edəndə Balaxanı, Bibiheybət ekoloji fəlakət şəraitində idi və bizim xalqımıza nə verdi? Bu, artıq ritorik sualdır. Ona görə bu gün biz bu yerləri ekoloji fəlakət zonalarından ekoloji cənnət zonalarına çevirməliyik və bunu edirik.

Ağsaqqal, xahiş edirəm, mənim salamlarımı bütün ağsaqqallara çatdırın. Siz də bütün gənclərə, bütün qadınlara, Balaxanının bütün sakinlərinə salamlarımı çatdırın. Bir daha demək istəyirəm, şadam ki, bu işlər artıq başa çatmaq üzrədir. Sağ olun.

**Elçin RİKABOV:** Səmimi-qəlbdən Sizə minnətdarıq. Cəmiyyət arasına çıxırıq, balacasından böyüyünədək hamısı deyir ki, Allah Sizə cansağlığı versin. İnanın, hər biri bu sözləri özünə uyğun ləhcədə deyir, rəsmi yox.

**Birinci xanım Mehriban ƏLİYEVA:** Bütün sakinlərə bizim dərin hörmətimizi və salamlarımızı çatdırın. Sağ olun.

**Sakinlər:** Sağ olun, minnətdarıq.

# *Prezidentin köməkçisi:* "Azərbaycan Ordusu qadın, uşaq və yaşlılara qarşı müharibə aparmır"

Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "Report"un suallarını cavablandırıb. AZƏRTAC müsahibəni təqdim edir.

*- Milli Məclisin deputatı, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Qüdrət Həsənquliyev Azərbaycan Ordusunun Ermənistan baş nazirinin həyat yoldaşını əsir götürmək üçün səbirsizliklə gözlədiyini deyib. Bu barədə nə deyərdiniz?*

- Azərbaycan Ordusu heç vaxt qadınlarla və ümumiyyətlə, mülki şəxslərlə döyüş aparmayıb. Azərbaycan Silahlı Qüvvələri beynəlxalq humanitar hüquq, xüsusilə Cenevrə Konvensiyalarını daim öz fəaliyyətində rəhbər tutub. Qadın, uşaq və yaşlı insanlara qarşı müharibə aparan və onları hədəfə alan məhz Ermənistan silahlı qüvvələridir. 2016-cı ilin Aprel döyüşlərində, bu il 12 iyulda Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində baş vermiş toqquşma zamanı biz bir daha bunun şahidi olduq. Ermənistan silahlı qüvvələri tərəfindən yaşayış məntəqələrinin hədəfli şəkildə artilleriya atəşinə tutulması nəticəsində 76 yaşlı vətəndaşımız Əziz Əzizov həlak oldu.

Qüdrət Həsənquliyev təcrübəli siyasətçidir. Uzun illərdir Milli Məclisin üzvüdür. Hər kəs orduya və dövlətə ləkə yaxa biləcək təxribatçı açıqlamalardan çəkinməlidir. Qüdrət Həsənquliyev dövlət məmuru olsaydı, Prezident tərəfindən cəzalandırılaraq vəzifəsindən azad edilərdi. Ümid edirik ki, hakimiyyətin qanunverici qanadı olan Milli Məclis tərəfindən qanunda təsbit olunmuş qaydada müvafiq tədbirlər görüləcək.



*- Sosial şəbəkələrdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışına çağırılması barədə bəzi spekulyativ fikirlər səslənir. Hətta bunu səfərbərlik kimi qələmə verənlər də vardır. Bunu necə şərh edərdiniz?*

- Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ehtiyatda olan hərbi vəzifəlilərin müxtəlif ixtisaslar üzrə təlim toplanışına çağırılması qanunda nəzərdə tutulmuş və müntəzəm əsasda həyata keçirilən tədbirdir. Bunun səfərbərlik adlandırılması tamamilə yanlışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələri şəxsi heyətlə tam şəkildə komplektləşdirilib. Xüsusi səfərbərlik tədbirlərinə ehtiyac belə yoxdur. Ehtiyatda olan hərbi vəzifəlilərin hərbi hazırlıq və bacarıqlarının yoxlanılması, onların hazırlıq səviyyəsinin daim artırılması dünyanın əksər ölkələrində də geniş tətbiq olunan praktikadır. Müqayisə üçün qeyd edək ki, İsveçrə, İsrail, Skandinaviya ölkələrində bu sahədə çox tələbkar sistem mövcuddur.

"Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, ölkəmizdə hərbi toplanış tədbirləri həyata keçirilir ki, buna başqa bir don geyindirmək və ya cəmiyyətdə təşviş yaratmaq tamamilə əsassızdır. Ermənistan xüsusi xidmət orqanlarının kiber diversant qruplarının azərbaycanlı adını daşıyan saxta sosial media ünvanları vasitəsilə bu kimi təxribatçı mövzuları yayması da istisna edilməməlidir.

Ordu və əsgər müqəddəs mövzudur. Bu mövzuda yazan, sosial mediada paylaşım edən hər bir şəxs öz vətəndaşlıq borcunu və məsuliyyətini dərk etməlidir.

*- Bu günlərdə xarici mediada və bəzi sosial şəbəkə profillərində, guya, Suriyadan Azərbaycana döyüşçülərin gətirilməsi barədə məlumatlar verilib. Bu barədə nə deyərdiniz?*

- Birmənalı şəkildə qeyd etmək istərdim ki, bu, yalan və saxta məlumatdır. Bu məlumatın arxasında Ermənistanın xüsusi xidmət orqanları durur. Azərbaycan Silahlı Qüvvələri şəxsi heyətlə tam komplektləşdirilib. Ordumuzun yüksək döyüş hazırlığı var və Ermənistanın hər bir təxribatının qarşısını almağa qadirdir. Muzdlulara və terrorçulara ehtiyacı olan məhz Ermənistan ordusudur. 1990-cı illərdə Ermənistan-Azərbaycan münaqişəsinin aktiv fazasında Ermənistan Livan, Fransa, ABŞ vətəndaşı olan erməni terrorçularından muzdlu kimi istifadə etmişdir. Xocalı soyqırımının törədilməsində iştirak etmiş və muzdlu terrorçulardan ibarət "Arabo" və "Aramo" terrorçu dəstələrinin Ermənistan silahlı qüvvələrinin tərkibində xidmət etməsi faktdır. İndi də Ermənistan Livan və Suriyadan gətirilən erməni mənşəli şəxsləri muzdlu kimi Ermənistan silahlı qüvvələrinin tərkibinə daxil edir. Ermənistan tərəfi Yaxın Şərqdə digər istiqamət üzrə terrorçuların Azərbaycanın işğal olunmuş ərazilərinə gətirilməsi kanalları üzərində iş aparır. Ona görə də bu xəbərlər növbəti saxta məlumatlardan başqa bir şey deyildir.

*- Sosial şəbəkələrdə yayılan saxta məlumatlara və bu kimi manipulyativ fəaliyyətlərə qarşı mübarizəni necə görürsünüz?*

- Ümumiyyətlə, ölkəmizin sosial şəbəkə seqmentində bəzi davranış və ifadə tərzi, qeyri-peşəkar və məsuliyyətsiz şərhlər, saxta və yalan məlumatların yayılması tezliyi və intensivliyi, ordunun fəaliyyəti haqqında paylaşımlar ciddi narahatlıq doğurur. Birmənalı şəkildə başa düşülməlidir ki, hər hansı fərdin sosial şəbəkələrdə paylaşdığı məlumat və ya xəbər yoxlanılmamış, yanlış, qərəzli və təhrikçi ola bilər. Bəzən iş o həddə çatır ki, peşəkar media araşdırmadan sosial şəbəkədə yayılmış xəbərə istinad edir.

Qeyd olunanlar sosial şəbəkələrin müsbət tərəflərini inkar etmir. Bu problem bütün dünyada mövcuddur. İlk növbədə, ölkə ictimaiyyətində, xüsusilə gənclər arasında sosial şəbəkə maarifləndirilməsinin artırılmasına ehtiyac var. Bu da onlarda sosial şəbəkələrin zərərli təsirlərindən qorunmaq üçün intellektual immuniteti artıra bilər.

Sosial şəbəkələri təsis edən böyük şirkətlər də öz məsuliyyətlərini başa düşməli və yalnız müəyyən etdikləri süni intellektin imkanları daxilində bu problemə baxmamalı, sosial şəbəkələrdə cərəyan edən neqativ tendensiyalara qarşı effektiv tənzimləyici mexanizmlər təqdim etməlidirlər.

# Nazirlər Kabineti büdcə məsələlərini müzakirə edib

Sentyabrın 23-də Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə Azərbaycan Respublikasının 2021-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2021-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunmuş iclas keçirilib.





Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin Mətbuat xidmətindən məlumat verilib.

Baş Nazir Əli Əsədov bildirib ki, pandemiya nəticəsində "qlobal məcmu tələbin azalması, dünya bazarlarında neftin qiymət volatilliyinin yüksəlməsi, həmçinin məhdudlaşdırıcı tədbirlərin tətbiqi bütün dünya ölkələrində olduğu kimi, Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib və nəticədə ölkəmizdə də iqtisadi fəallığın azalması müşahidə olunub".

Baş Nazir xərclərin səmərəliliyi və qənaətin vacibliyini vurğulayaraq deyib: "Büdcə təşkilatları tərəfindən cari xərclərdən səmərəli, düzgün istiqamətdə və qənaətcil istifadə olunmalıdır. Çünki bir çox hallarda büdcə təşkilatlarında izafi xərclərə yol verilir, ştat vahidlərinin sayı artırılır, lazım olmayan alışlar həyata keçirilir, satınalmalarda qiymətlər olduğundan çox yüksək göstərilir. Həmçinin büdcə alışlarında, bir qayda olaraq, idxala üstünlük verilir. Aidiyyəti orqanlar tərəfindən büdcə təşkilatlarında cari xərclərin effektiv istifadəsinə nəzarət daha da gücləndirilməlidir.

Eyni zamanda prioritet olmayan tədbirlərin keçirilməsinə üstünlük verilməməli, bu istiqamətdə xərclər optimallaşdırılmalı, o cümlədən lüzumsuz ezamiyyətlər və əlaqəli xərclər azaldılmalıdır.

Növbəti ilin dövlət büdcəsində əsaslı xərclər çox önəmli əhəmiyyət kəsb edir. Təbii ki, investisiya xərcləri iqtisadi artıma, məşğulluğa müsbət təsir edir. Lakin investisiya proqramlarının şəffaflığının, iqtisadi səmərəsinin və gəlirliliyinin yüksəldilməsi olduqca vacibdir. Qeyri-prioritet təşkil edən investisiya layihələri ixtisar olunmalı və ayrılmış vəsaitlər qənaətlə istifadə edilməlidir".

Baş Nazir daha sonra diqqəti Prezident İlham Əliyevin dövlət şirkətlərinin fəaliyyətinin səmərəliliyinin artırılması haqda tapşırığına cəlb edib: "Prezident İlham Əliyev avqustun 6-da keçirdiyi videomüşavirədə dövlət şirkətlərində idarəetmənin təkmilləşdirilməsini, dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsinə baxmayaraq, onların fəaliyyətinin səmərəli olmadığını, əksər dövlət şirkətlərinin maliyyə vəziyyətinin ağır olduğunu, borclanma yükünün artdığını və bu sahədə nəzarət funksiyasının kifayət qədər effektiv olmadığını bildirib.

Qeyd olunan problemlərin həlli məqsədilə Prezident İlham Əliyevin 7 avqust tarixli Fərmanı ilə Azərbaycan İnvestisiya Holdinqi yaradılıb və bu qurumun qarşısında çox vacib və ciddi tapşırıqlar qoyulub".

Qeyd olunub ki, ölkənin hərbi potensialının və ordu quruculuğunun daha da gücləndirilməsi istiqamətində növbəti ilin büdcəsində də ciddi artım nəzərə alınıb və ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması növbəti büdcə ilində də öz prioritetliyini saxlayacaq.

Baş Nazir qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında ortamüddətli perspektivdə, o cümlədən 2021-ci ildə də hökumət qarşısında qoyulan bütün tapşırıqlar vaxtında və bütövlükdə icra olunacaq.

İclasda İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə nazirinin müavini Azər Bayramov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov, Dövlət Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev çıxış edərək büdcə layihəsi haqda fikirlərini bildiriblər.

Sonda Nazirlər Kabineti xüsusi Qərarla "Azərbaycan Respublikasının 2021-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2021-ci il və gələn üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri"nin bəyənilməsi, layihələrin və "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulan digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi haqda Qərar qəbul edib.

## Regional əməkdaşlığa mühüm əhəmiyyət verən Azərbaycan pandemiya zamanı da təchizat axınını dayandırmayıb

Sentyabrın 23-də Xarici İşlər naziri Ceyhun Bayramov Açıq dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrin videokonfrans formatında keçirilən illik Nazirlər görüşündə iştirak edib.

AZƏRTAC xəbər verir ki, açıq dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr qrupuna sədrlik edən Qazaxıstanın təşəbbüsü ilə "COVID-19 dövründə Vyana Fəaliyyət Proqramının sürətləndirilmiş şəkildə həyata keçirilməsi və Açıq dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələrdə davamlı inkişafa nail olmaq üçün tərəfdaşlıq" mövzusunda keçirilən görüşün açılış sessiyasında Qazaxıstanın Xarici İşlər naziri Muxtar Tleuberdi, BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkır və BMT-nin Baş katibi Antonio Quterreşin çıxışları dinlənilib.

Nazirlər görüşünün ümumi müzakirələrində 28 ölkə və beynəlxalq təşkilatın nümayəndəsi iştirak edib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov COVID-19 ilə mübarizə çərçivəsində Azərbaycan tərəfindən həyata keçirilən tədbirlər, eləcə də bu xüsusda qlobal müstəvidə səylərin gücləndirilməsi üçün Azərbaycanın verdiyi töhfələr barədə danışıb. Pandemiya zamanı Azərbaycanın regional əməkdaşlığa mühüm əhəmiyyət verərək təchizat axınını dayandırmadığı vurğulanıb.

Nazir Ceyhun Bayramov tərəfindən Azərbaycanın bölgədaxili və bölgələrarası nəqliyyat əlaqələndirmə layihələri, o cümlədən Avrasiya məkanı boyunca tranzit imkanlarını artırmağı hədəf alan əsas infrastruktur layihələri, eləcə də ölkəmizdə nəqliyyat infrastrukturunun modernləşdirilməsi barədə məlumat verilib.

Çıxışının sonunda nazir Ceyhun Bayramov tədbir iştirakçılarının diqqətini Ermənistanın cari ilin iyul ayında Azərbaycan-Ermənistan sərhədində hərbi təxribatına cəlb edərək, bu ölkənin silahlı qüvvələrinin Azərbaycanın mühüm enerji və nəqliyyat infrastrukturunu hədəf aldığını vurğulayıb. Bu infrastrukturun yalnız Azərbaycanın iqtisadi davamlılığı üçün deyil, geniş Avrasiya bölgəsi üçün əhəmiyyət kəsb etdiyi iştirakçıların nəzərinə çatdırılıb. Nazir Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında həllinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, Açıq dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr qrupu sözügedən ölkələrin səmərəli tranzit əməkdaşlığını təşviq etmək, bununla da onların dünya iqtisadiyyatına inteqrasiyasına və Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmasına töhfə vermək məqsədilə yaradılıb. Qrupda Azərbaycan da daxil olmaqla, 32 ölkə təmsil olunur.

## Asiya İnkişaf Bankı Azərbaycandakı layihələrə 5,2 milyard dollardan çox kredit ayırıb

Bu vaxtadək Asiya İnkişaf Bankı Azərbaycanda həyata keçirilən müxtəlif layihələrə 5,2 milyard dollardan çox kredit ayırıb.



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir Mikayıl Cabbarov Asiya İnkişaf Bankının Azərbaycandakı daimi nümayəndəliyinin rəhbəri Nariman Mannapbekovla görüşüb. Görüşdə İqtisadiyyat naziri Azərbaycanın Asiya İnkişaf Bankı ilə əməkdaşlığa önəm verdiyini, bankın ölkəmizdə bir sıra layihələrin reallaşdırılmasına dəstək göstərdiyini vurğulayıb. Bildirilib ki, indiyədək Asiya İnkişaf Bankı tərəfindən ölkəmizdə həyata keçirilən müxtəlif layihələrə 5,2 milyard dollardan çox kredit ayrılıb. Azərbaycan bankın Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramında fəal iştirak edir. Bankın hazırladığı "Azərbaycan: daha şaxələnmiş, dayanıqlı və əhatəli inkişafa doğru" tədqiqat sənədi ölkəmizin iqtisadi inkişafı üzrə bir sıra önəmli məsələləri əhatə edir.

Qeyd edilib ki, Asiya İnkişaf Bankı ilə Layihə Hazırlığı Maliyyələşdirmə Aləti çərçivəsində, həmçinin yüksək texnologiya və innovasiya, təhsil, kiçik və orta biznesin inkişafı, dövlət-sahibkar tərəfdaşlığı, vergi siyasəti, irriqasiya və digər sahələr üzrə layihələrin icrası istiqamətində əməkdaşlıq faydalı ola bilər.

Azərbaycanın inkişaf prioritetlərindən danışan M.Cabbarov iqtisadi islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və rəqabətqabiliyyətliyinin artırılması tədbirləri barədə məlumat verib, Asiya İnkişaf Bankı ilə İqtisadiyyat Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqi arasında əməkdaşlıq imkanlarını diqqətə çatdırıb.

N.Mannapbekov ölkəmizdəki fəaliyyətindən məmnunluğunu ifadə edərək Azərbaycan-Asiya İnkişaf Bankı əlaqələrinin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə əməkdaşlığın genişləndirilməsi perspektivləri, bankın dəstəyi ilə həyata keçirilən layihələrin icrası və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edilib.

## Baş prokuror prokurorluq orqanlarının şəhid olmuş əməkdaşlarının ailə üzvləri ilə görüşüb

Prokurorluq işçilərinin peşə bayramı ərəfəsində - sentyabrın 23-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələri ilə görüş keçirib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirin məqsədi vətənimizin ərazi bütövlüyü uğrunda, cinayətkarlıqla mübarizə zamanı xidməti vəzifələrini icra edərkən şəhid olmuş prokurorluq əməkdaşlarının xatirəsini yad etmək olub.

Tədbiri giriş sözü ilə açan Baş prokuror şəhid prokurorluq əməkdaşlarının ailə üzvlərinə dərin hörmətini ifadə edərək, onların cinayətkarlıqla mübarizə zamanı Vətən uğrunda həlak olaraq şəhidlik zirvəsinə yüksəldiyini vurğulayıb.

Şəhid prokurorluq əməkdaşlarının ailə üzvləri tədbirdə çıxış edərək Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə göstərdiyi gündəlik diqqət və qayğıdan, şəhid ailələrinin sosial müdafiəsinin təmin edilməsi üçün kompleks işlərin görülməsindən söz açıblar.

Sabiq Baş prokuror İsmət Qayıbovun oğlu İsmayıl Qayıbov, Qubadlı rayonunun sabiq prokuroru Nizami Ağayevin həyat yoldaşı İradə Ağayeva, Samux rayonunun sabiq prokuroru Şəmşir Əliyevin həyat yoldaşı Gültəkin Əliyeva, Qubadlı Rayon Prokurorluğunun sabiq müstəntiqi Eyyub Vəliyevin həyat yoldaşı Flora Vəliyeva baş vermiş hadisələrlə bağlı xatirələrini bölüşərək, prokurorluq orqanlarının əməkdaşları tərəfindən göstərilən dəstək və qayğıdan məmnunluqlarını ifadə ediblər.

Tədbirə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həlli ilə bağlı bundan sonra da işlərin görüləcəyini qeyd edib, prokurorluq orqanlarının onlara hər zaman dəstək olacağını nəzərə çatdırıb.

Sonda xatirə şəkli çəkdirilib.

## İLHAM ƏLİYEV qlobal layihələrini yeni çağırışlara uyğun reallaşdırır

*Əvvəli 1-ci səh.*

Orada işlər plan üzrə gedir. İndi "Mərkəzi-Şərqi Azəri" adlanan yeni layihə icra edilir. Bu layihənin dəyəri təqribən 7 milyard dollara yaxındır. Bu layihənin icrası nəticəsində yeni mənbələrdən hasilat artacaq və təbii ki, enmənin kompensasiyasını təmin edəcək.

Hazırda "Şahdəniz-2" layihəsi icradadır. TANAP xətti ilə Türkiyəyə ötürülən qazın həcmi ildən-ilə artır. Əgər bir il bundan əvvəl Türkiyə bazarında Azərbaycan qazı 4-cü, 5-ci yerdə idisə, hazırda birinci yerdədir. Bu, həm ölkəmiz, həm də Türkiyə üçün çox önəmlidir. Prezident bildirdi ki, "Abşeron" yatağında ikinci fazadan çıxarılacaq qaz da TANAP xətti ilə Türkiyəyə ötürüləcək və digər bazarlara ötürülə bilər. Eyni zamanda "Qarabağ" yatağının işlənilməsi ilə əlaqədar işlər plan üzrə gedir: "Hazırda burada gördüyümüz dayaq bloku dənizə göndəriləcək və ümid edirəm ki, bir, iki ildən sonra "Qarabağ" yatağından ilk neft hasil olunacaq. Bu yatağın özəlliyi odur ki, orada neft ehtiyatları daha çoxdur və bizim hasilatımızın sabit saxlanması üçün bunun böyük əhəmiyyəti var. Digər çox perspektivli layihə "Dayazsulu Abşeron" adlanır və bu layihənin də perspektivi çox böyükdür. Bir neçə aydan sonra o yataqlarda ilk qazma işləri aparılacaq. Ümid edirəm ki, biz orada da böyük neft ehtiyatı aşkar edəcəyik".

Azərbaycanın bundan sonra da etibarlı qaz təchizatçısı olacağını vurğulayan Prezident diqqətə çatdırdı ki, "Abşeron"un birinci mərhələsində çıxarılacaq qaz daxili tələbatlara istiqamətləndiriləcək. Çünki buna da ehtiyac var. Artan əhali, artan sənaye bunu tələb edir. İkinci mərhələdə hasil olunacaq qaz isə ixrac yolu ilə dünya bazarlarına çıxarılacaq.

### Postpandemiya dövründə iqtisadi tərəqqiyə yol açan qərarlar

Bu gün hazırkı əlverişsiz qlobal mühitdə əhalinin sosial rifahının səviyyəsinin aşağı düşməsinə imkan verməmək və postpandemiya dövründə iqtisadiyyatın artım tempinə nail olmaq zərurəti yaranıb. Bütün bunları nəzərə alan cənab İlham Əliyev milli iqtisadi inkişaf qarşısında duran strateji çağırışlara adekvat cavabın verilməsini təmin etmək məqsədilə qarşıya yeni vəzifələr qoyub. Bu isə əlbəttə ki, ölkə iqtisadiyyatının tərəqqisi və gələcəyi üçün böyük əhəmiyyətə malikdir.

İslahatçı Prezident kimi tanınan cənab İlham Əliyev imzaladığı fərman və sərəncamlarla postpandemiya dövründə sosial-iqtisadi sferada islahatların vahid mərkəzdən əlaqələndirilməsi sistemini yaradır. "Sumqayıt Kimya Sənaye Parkı"nın nəzdində Peşə Təhsil Mərkəzinin açılışı zamanı postpandemiya dövrünə hazırlıqlarla bağlı görülən işlərdən söz açan dövlət başçısı bildirdi ki, qeyri-neft sənayesinin inkişafı hər zamankı kimi prioritet olaraq qalır. Dövlət başçısı bu gün Azərbaycanın bütün sahibkarlar üçün əlverişli məkan olduğunu söylədi və həm yerli, həm də xaricdə yaşayan azərbaycanlı iş adamlarını ölkəmizə sərmayə yatırmağa dəvət etdi.

Prezident dedi ki, Azərbaycanda sahibkarlar üçün yaradılan əlverişli biznes mühiti hər zaman xarici investorların ölkəmizə marağını artırıb və bu gün də proses davam etməkdədir. Eləcə də dəfələrlə yerli investorları istiqamətləndirən cənab İlham Əliyev onların Azərbaycana investisiya yatırmaları üçün çağırışlar edib: "Mən çıxışımda xaricdə yaşayan azərbaycanlı iş adamlarına da müraciət edirdim ki, onlar da gəlib Azərbaycana vəsait qoysunlar. Azərbaycan onların vətənidir və onlar hər zaman Azərbaycanın dəstəyini görürlər, güclü Azərbaycan onların da gücünü artırır. Ona görə azərbaycanlılar müxtəlif ölkələrdə iqtisadiyyat, kommersiya, biznes sahələrində böyük uğurlar əldə ediblər. Onlar da öz vətəninə vəsait qoymalıdırlar, öz vətəni ilə daim əlaqə saxlamalıdırlar, öz uşaqlarını Azərbaycan dəyərləri əsasında, milli ruhda tərbiyə etməlidirlər ki, övladları həm Azərbaycan dilini bilsinlər, həm də bizim milli dəyərlərimizi yaşatsınlar".

Prezident vurğuladı ki, əgər bütün bu amillər düzgün istiqamətə səfərbər edilsə, onda Azərbaycana investisiya axını dayanmayacaq. Çünki bu gün dünyada yaşanan, pandemiya nəticəsində dərinləşən böhran bir çox şirkətlərə mənfi təsir göstərib. Ancaq məhz bu şəraitdə belə addımlar atılmalıdır ki, Azərbaycan postpandemiya dövrünə ən hazırlıqlı ölkələr sırasına yüksəlsin və vaxt itirmədən yeni inkişaf dinamikasına sahib olsun.

### İnvestorlardan Prezidentin çağırışına dəstək

Hər zaman yerli və xarici investorlar üçün əlverişli məkan olan Azərbaycanda sahibkarlar üçün böyük imkanlar yaradılır. Ölkəmizə investisiya yatırmaq istəyən hər bir şirkətə sənaye parklarında rezident statusu verilir, eyni zamanda, investorlara dövlət tərəfindən kömək göstərilir, güzəştli kreditlər ayrılır. İnvestorlar müəyyən müddətdə vergilərdən azad edilir.

İqtisadiyyat naziri Mikayıl Cabbarov Prezidentin çağırışından sonra sahibkarlardan reaksiyaların olduğunu deyib. Həm Azərbaycanda, həm də xaricdə fəaliyyət göstərən iş adamları ölkəmizdə müxtəlif sahələrə investisiya yatırmağa hazır olduqlarını bildiriblər. Xatırladaq ki, cənab İlham Əliyev bir müddət öncə rayon icra hakimiyyəti başçılarına da tapşırıqlar verərkən bu məsələyə toxunmuşdu. Bildirmişdi ki, hər bir icra hakimiyyəti başçısı rayonun iqtisadi potensialı ilə bağlı təqdimatlar hazırlamalı və yerli, xarici investorlara təqdim etməlidir: "Mən dəfələrlə icra başçıları ilə görüşlərdə demişdim ki, onların fəaliyyətinin əsas istiqamətlərindən biri də məhz bunlar olmalıdır - investisiyaları cəlb etmək, iş yerləri yaratmaq, eyni zamanda, rayon və şəhərlərdə gedən işlərə təkan vermək".

Prezidentin dediyi kimi, bu proseslər reallaşacağı təqdirdə, ölkəyə, rayonlara böyük investisiyalar qoyulacaq və bu da, həm gəlir gətirəcək, həm də məşğulluğa müsbət təsir göstərəcək. Bir sözlə, Prezidentin investorlara çağırışı və iş adamlarının bu çağırışa dəstək vermələri onu deməyə əsas verir ki, tezliklə ölkəmizdə müxtəlif sahələrə böyük investisiyalar yatırılacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

## Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının iclası keçirilib

Azərbaycan Respublikasının Baş Prokuroru yanında Elmi-Məsləhət Şurasının iclası keçirilib.



Bu barədə AZƏRTAC-a Baş Prokurorluğun Mətbuat xidmətindən məlumat verilib.

Prokurorluq orqanlarında aparılan genişmiqyaslı islahatların tərkib hissəsi kimi, nəzəri bilik və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi məqsədilə tədrisin təşkili işinin daha da təkmilləşdirilməsi və müasir dövrün tələbləri baxımından qurulması üçün ardıcıl tədbirlər həyata keçirilməkdədir. Tədrisin təşkili fəaliyyətinin qabaqcıl beynəlxalq təcrübə əsasında müasirləşdirilməsi məqsədilə ölkəmizin aparıcı elmi və təhsil, eləcə də bu sahədə uğurlu təcrübəsi olan ölkələrin müvafiq elmi qurumları, tədris müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə birgə tədqiqatların aparılması, dinləyici və təlimçilərin mübadiləsi, mütəxəssis hazırlığı və digər sahələrdə işgüzar əlaqələrin qurulması və daha da inkişaf etdirilməsi üçün əməli addımlar atılır.

Prokurorluğun fəaliyyət istiqamətləri, o cümlədən ibtidai araşdırmanın aparılması və dövlət ittihamının müdafiəsi üzrə vahid təcrübənin formalaşdırılmasının, qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, hüquqyaradıcı və hüquqtətbiqedici fəaliyyətin elmi-nəzəri əsaslarını müəyyən etməklə Konstitusiya və "Prokurorluq haqqında" Qanun ilə prokurorluq orqanlarına həvalə edilmiş vəzifələrin həyata keçirilməsinə elmi-metodiki kömək göstərilməsi məqsədilə həmin qanunun 40-cı maddəsinə əsasən, Baş Prokuror yanında məşvərətçi orqan kimi Elmi-Məsləhət Şurası yaradılıb.

Elmi-Məsləhət Şurasının fəaliyyətinin təmin olunması üçün Baş Prokurorluq üzrə 2020-ci il 18 sentyabr tarixli əmrlə Şuranın 32 nəfərdən ibarət tərkibi təsdiqlənib. Şura üzvlüyünə prokurorluq əməkdaşları və prokurorluğun veteranları ilə yanaşı, Azərbaycan Respublikası Prezidenti Administrasiyası, Milli Məclis, Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Bakı Dövlət Universiteti, Azərbaycan Diplomatik Akademiyası, Milli Aviasiya Akademiyasının İqtisadiyyat və hüquq fakültəsinin hüquqşünaslıq kafedrasının, eləcə də digər dövlət orqanları, ali təhsil müəssisələri, Ədliyyə, Polis, Dövlət Təhlükəsizliyi Xidmətinin akademiyalarının nümayəndələri daxil olmaqla, elmi dərəcəsi, nüfuzlu beynəlxalq nəşrlərdə məqalə və kitabların müəllifi olan yüksək ixtisaslı və təcrübəli 14 hüquqşünas daxil edilib.

Vurğulanıb ki, Elmi-Məsləhət Şurasının üzvlüyündə ümumilikdə, 6 hüquq üzrə fəlsəfə doktoru və 5 hüquq elmləri doktoru təmsil olunublar.

Baş prokuror Kamran Əliyevin sədrliyi ilə Elmi-Məsləhət Şurasının ilk iclası keçirilərək, qarşıda duran vəzifələr və fəaliyyət istiqamətləri müəyyənləşdirilib, Baş Prokurorluğun Elm-Tədris Mərkəzi, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyası, Daxili İşlər Nazirliyinin Polis Akademiyası və Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyası, eləcə də Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Dövlət Universiteti, Azərbaycan Diplomatik Akademiyası, Prezident yanında İdarəçilik Akademiyası, Milli Aviasiya Akademiyası və Naxçıvan Dövlət Universiteti ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığa dair təkliflərin müzakirəsi aparılıb.

Tədbirdə həmçinin Şuranın üzvləri ilə faydalı fikir mübadiləsi aparılıb, nəzəriyyə və praktikanın əlaqələndirilməsi ilə bağlı görüləcək işlər müzakirə olunub.

Bundan əlavə, tədbirdə "Maddi sübutların götürülməsi və qablaşdırılması taktikası, götürülmüş maddi sübutlarla bağlı ekspertiza növlərinin təyini məsələlərinə dair müstəntiqin məlumat kitabçası"nın, "Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 208-ci maddəsi ilə istintaq edilən işlərin istintaq taktikasına dair" və "Hüquqi şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinə dair" metodiki vəsaitlərin təqdimatı həyata keçirilib.

# Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federal Məclisinin Federasiya Şurasında çıxış edib

**Rusiyada rəsmi səfərdə olan Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 23-də Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasında çıxış edib.**





AZƏRTAC xəbər verir ki, Rusiyaya səfərə dəvət üçün Federasiya Şurasının Sədri Valentina Matviyenkoya təşəkkürünü bildirən Milli Məclisin Sədri Azərbaycan-Rusiya münasibətlərinin tarixi köklərindən bəhs edib. Ümummilli Lider Heydər Əliyevin Rusiya ilə hərtərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini qeyd edib. Hazırda prezidentlər İlham Əliyev ilə Vladimir Putin arasında mövcud olan dostluğun və qarşılıqlı etimadın ölkələrimiz arasındakı əməkdaşlığın yüksələn xətlə inkişafına güclü təkan verdiyini vurğulayıb.

Parlamentin Sədri bildirib ki, müasir dövrdə Azərbaycan ilə Rusiya arasında stabil, mehriban qonşuluq münasibətləri mövcuddur. Ölkələrimiz arasında 200-dən çox dövlətlərarası, hökumətlərarası və idarələrarası sənəd imzalanıb. Bu sənədlər ən müxtəlif sahələrdə, o cümlədən ticarət-iqtisadi, sosial, humanitar, hərbi-texniki və digər sahələrdə əməkdaşlığın möhkəm hüquqi bazasını təşkil edir. Xüsusi olaraq qeyd edilib ki, Rusiya ticarət sahəsində Azərbaycanın əsas tərəfdaşlarından biridir.

Sahibə Qafarova diqqətə çatdırıb ki, bu iki dövlətin regionları arasında əməkdaşlığın coğrafiyası gündən-günə genişlənir. Bu gün Azərbaycan Rusiya Federasiyasının subyektləri olan Dağıstan və Tatarıstanla, Həştərxan, Saratov, Sverdlovsk, Ulyanovsk, Yekaterinburq, Vladimir, Volqoqrad və digər vilayətlərlə fəal əməkdaşlıq edir. Xüsusilə, Azərbaycanla Rusiya arasında humanitar sahədə səmərəli əməkdaşlıq böyük məmnunluqla qeyd edilməlidir. Dövlət başçılarımızın təşəbbüsü ilə keçirilən Bakı Beynəlxalq Humanitar Forumu son illər iki dövlətin humanitar əlaqələri sahəsində əsas hadisələrdən birinə çevrilib.

Qeyd edilib ki, ölkəmizdə həmişə rus dilinə və rus mədəniyyətinə qayğı ilə yanaşılıbdır. Azərbaycanda Bakı Slavyan Universiteti, M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin və İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları fəaliyyət göstərir. Respublikanın 300-dən çox orta məktəbində tədris rus dilində aparılır, ali məktəblərin əksəriyyətində rus dilində şöbələr var. Bakıda 1920-ci ildən - 100 il bundan öncə açılışı olmuş Səməd Vurğun adına Rus Dram Teatrı fəaliyyət göstərir.

Azərbaycan müxtəlif millətlərin və dinlərin nümayəndələrinin bir ailə kimi yaşadığı, məscidlərin, pravoslav və katolik kilsələrinin, sinaqoqların sərbəst fəaliyyət göstərdiyi çoxmillətli və çoxkonfessiyalı bir ölkədir. Bizim ölkədə Cənubi Qafqazda ən böyük - 120 mindən çox üzvü olan rus icması fəaliyyət göstərir. Bu icmaya altıncı çağırış Milli Məclisin deputatı seçilən Mixail Zabelin başçılıq edir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində rus icmasının fəaliyyətini yüksək dəyərləndirərək deyib: "Azərbaycandakı rus icması özünün milli və dini adət-ənənələrini, etnik özünəməxsusluğunu, dilini və mədəniyyətini qoruyub saxlamışdır. Bu gün çoxmillətli Azərbaycan cəmiyyətini rus vətəndaşları olmadan təsəvvür etmək olmaz".

Ölkələrimiz arasında məhsuldar humanitar əlaqələrin inkişafında Azərbaycanın Birinci vitse-prezidenti, UNESKO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xüsusi yeri var.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan-Rusiya əməkdaşlığının inkişafında hər iki ölkənin parlamentləri də fəal iştirak edirlər. Hazırda ölkələrimizin ali qanunverici orqanları arasında əlaqələr "Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi arasında əməkdaşlıq haqqında" sazişin müddəalarına əsaslanır. Bu sənədə əsasən, daimi əməkdaşlıq üzrə parlamentlərarası komissiya yaradılıb. Hər iki ölkənin parlament sədrlərinin ənənəvi qarşılıqlı səfərləri və dostluq qruplarının fəaliyyəti dövlətlərarası əməkdaşlığın daha da dərinləşməsinə xüsusi töhfə verir. Deputatlarımız nüfuzlu beynəlxalq qurumlarda fəal əməkdaşlıq edir, bir-birinə dəstək olurlar. Xatırlatmaq yerinə düşərdi ki, AŞ PA-da Rusiyanı bu beynəlxalq qurumda səsvermə hüququndan məhrum edən qətnamə layihəsi səsə qoyularkən Azərbaycan nümayəndə heyəti tam heyətdə bu sənədə qarşı səs verən azsaylı nümayəndə heyətlərindən biri olubdur.

Sahibə Qafarova öz çıxışında deyib ki, bizim ölkələrimizi ümumi tarixə malik olmağımız da birləşdirir. 75 illiyini bu il qeyd etdiyimiz faşizm üzərində böyük Qələbə də məhz bu qəbildəndir. Sədr vurğulayıb ki, ötən illər ərzində faşist ideologiyasına son qoyulmasına baxmayaraq, bəzi ölkələrin son zamanlar tarixi yenidən yazmaq istəməsi ilə yanaşı, nasist əlaltılarının qəhrəmanlaşdırılması cəhdləri də müşahidə olunur, onlara abidələr ucaldılır və bu da beynəlxalq ictimaiyyətin haqlı qəzəbinə və qınağına səbəb olur. Mübaliğəsiz biabırçılıq olan bu cür hadisələrə münasibət bildirməkdən Rusiya kənarda qalmadı və nasizmin qəhrəmanlaşdırılmasına qarşı mübarizə barədə BMT-də müzakirə aparılmasının və qətnamə qəbul edilməsinin təşəbbüskarı oldu.

"Ancaq biz görürük ki, bir sıra dövlətlər, məsələn, Ermənistan respublikası Birləşmiş Millətlər Təşkilatının və digər nüfuzlu beynəlxalq qurumların qərarlarına əhəmiyyət vermir. Əks təqdirdə, Yerevanın mərkəzində Hitler tərəfdarı olan faşist əlaltısı Qaregin Njdeyə altı metr hündürlüyündə heykəlin qoyulmasını nə ilə izah etmək olar? Axı, "kim Almaniya uğrunda ölürsə, o, Ermənistan uğrunda ölür" ifadəsi məhz ona məxsusdur. Düşünürük ki, Ermənistanın bu cür hərəkətləri diqqətdən kənarda qalmamalı və öz adekvat cavabını almalıdır", - deyə Milli Məclisin Sədri vurğulayıb.

Azərbaycan parlamentinin Sədri ən yaralı yerimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə toxunaraq bildirib ki, bu münaqişə nəticəsində Azərbaycan ərazilərinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayon işğal edilib.

Milli Məclisin Sədri Dağlıq Qarabağın tarixinə kiçik bir ekskurs edərək diqqətə çatdırıb ki, 1805-ci il mayın 14-də Azərbaycanda, Gəncə şəhərinin yaxınlığında yerləşən Kürəkçay qəsəbəsində Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında Kürəkçay müqaviləsi imzalanıb. Müqavilə Qarabağ xanı İbrahimxəlil xan və Rusiya imperiyasının generalı Pavel Sisianov tərəfindən imzalanıb. Sonralar 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri əsasında Azərbaycanın digər əraziləri də Rusiya imperiyasının tərkibinə keçdi. Rusiya imperiyası süquta uğradıqdan sonra 1918-ci ildə Azərbaycanda Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı və 2 il mövcud oldu. 1920-ci ildə isə, məlum olduğu kimi, Azərbaycanda sovet hakimiyyəti quruldu. Bir il sonra isə - 1921-ci ildə Bolşevik partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul edib. Bəzi saxtakar erməni mənbələrinin əsassız olaraq iddia etdiyi kimi "təhvil verilməsi" deyil, "saxlanılması" haqqında. 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul edib. Burada həyat səviyyəsi ölkənin digər regionlarından daha yüksək idi. Burada heç vaxt heç kəs milli və dini mənsubiyyətinə görə sıxışdırılmamışdı.

Milli Məclisin Sədri təəssüflə qeyd edib ki, Ermənistan Dağlıq Qarabağın ələ keçirilməsi cəhdlərindən heç vaxt əl çəkməyib. XX əsrin 80-ci illərində bu, bir daha baş verdi. Həmin vaxt əsrlər boyunca öz tarixi torpaqlarında yaşamış olan yüz minlərlə azərbaycanlı Ermənistandan qovuldu, 700 min etnik azərbaycanlı isə Dağlıq Qarabağ və ətraf 7 rayonda öz daimi yaşayış yerindən didərgin salındı. Etnik təmizləmə nəticəsində dinc əhali çoxsaylı qurbanlar verdi və işğal edilmiş ərazilərdə müasir beynəlxalq humanitar hüquqa baxmayaraq, qeyri-qanuni olaraq demoqrafik vəziyyət dəyişdirildi.

Ən yüksək səviyyədə - BMT çərçivəsində 1993-cü ildə Təhlükəsizlik Şurasının Ermənistan silahlı birləşmələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması barədə dörd qətnamə qəbul etməsinə baxmayaraq, atəşkəs rejimini daim pozan Ermənistan tərəfindən həmin qətnamələrə bu günədək məhəl qoyulmur.

Sahibə Qafarova Ermənistanın son təxribatına diqqət çəkərək bildirib ki, bu hadisə artıq Qarabağda deyil, Azərbaycan-Ermənistan dövlət sərhədində baş verdi. Belə ki, cari il iyulun 12-də Tovuz rayonu istiqamətində yaşayış məntəqələri artilleriya atəşinə tutuldu. Nəticədə azərbaycanlı hərbçilər və mülki şəxslər həlak oldu və yaralandı. Bütün bunlar beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının və 1977-ci il iyunun 8-də qəbul edilmiş Əlavə Protokolunun ciddi şəkildə pozulması deməkdir və hərbi cinayət kimi qiymətləndirilir. Həmin konvensiyaların ziddinə olaraq bu gün Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən Suriya və Livan qaçqınlarının qanunsuz məskunlaşdırılması xüsusi narahatlıq doğurur.

Parlamentin Sədri bildirib ki, Azərbaycan münaqişənin danışıqlar masası arxasında, sülh yolu ilə həllinin tərəfdarıdır. Biz belə hesab edirik ki, münaqişə dövlətlərin ərazi bütövlüyü və tanınmış sərhədlərin toxunulmazlığı, beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunmalıdır. Hesab edirik ki, Dağlıq Qarabağın statusunu müəyyən etmək məqsədilə oradan qovulmuş Azərbaycan əhalisini öz daimi yaşayış yerlərinə geri qaytarmaq və onların erməni əhalisi ilə bərabər şəkildə məişətini və təhlükəsizliyini təmin etmək lazımdır. Ancaq bundan sonra hər hansı bir statusun verilməsindən danışmaq olar. Azərbaycan tərəfi ölkənin bu bölgəsinin hər iki icmasının faydalanacağı bütün zəruri tədbirləri həyata keçirməyə hazırdır. Sizin də anladığınız kimi, bu mərhələyə keçmək üçün əsas maneə ərazilərimizin işğalıdır. Onu da qeyd etmək istəyirəm ki, bu gün burada nümayəndə heyətimizin tərkibində Milli Məclisin deputatı, Dağlıq Qarabağın Azərbaycanlı icmasının rəhbəri Tural Gəncəliyev iştirak edir. Təəssüf ki, Azərbaycan tərəfinin problemin sülh yolu ilə həlli istiqamətində bütün səyləri müxtəlif təxribatlara və hərbi ritorikaya üstünlük verən Ermənistan hakimiyyətinin qeyri-konstruktiv siyasəti nəticəsində puç olur.

Sədr vurğulayıb ki, Azərbaycan heç vaxt başqasının torpağına iddia etməyib. Azərbaycan xalqı özünün tarixi torpaqlarında ikinci erməni dövlətinin yaradılmasına heç bir zaman imkan verməyəcək.

Çıxışına davam edərək S.Qafarova deyib ki, yalnız regional məsələlərdə deyil, qlobal gündəmdəki məsələlərin həllində də Rusiyanın mövcud rolundan danışmağa ehtiyac yoxdur. Biz ümid edirik ki, əvvəldən münaqişənin sülh yolu ilə həllinə çalışan Rusiya beynəlxalq siyasətdə öz nüfuzundan istifadə edəcək və uzun illər davam edən bu qarşıdurmaya son qoymaq üçün əlindən gələni əsirgəməyəcək.

Milli Məclisin Sədri Sahibə Qafarova çıxışının sonunda əminliklə bildirdi ki, Azərbaycanla Rusiya arasında dostluq və qarşılıqlı faydalı əməkdaşlıq bundan sonra da davamlı olaraq möhkəmlənəcək, ölkələrimizin çiçəklənməsi və xalqlarımızın rifahı naminə inkişaf edəcək.

# Vyaçeslav VOLODİN: "Paşinyanın Dağlıq Qarabağla bağlı fikirləri sülh prosesinə kömək etmir"

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi Azərbaycan parlament nümayəndə heyəti sentyabrın 23-də Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində Federal Məclisin Dövlət Dumasının Sədri Vyaçeslav Volodinlə görüşüb.



AZƏRTAC xəbər verir ki, Azərbaycan nümayəndə heyətini Rusiya Dövlət Dumasında görməkdən məmnunluğunu bildirən Vyaçeslav Volodin iki ölkə arasında qarşılıqlı səfərlərin əhəmiyyətindən danışıb.

Bildirib ki, Rusiya və Azərbaycan strateji tərəfdaş olan ölkələrdir və hazırda iki ölkənin parlamentləri arasında əməkdaşlıq haqqında saziş sənədi üzərində iş gedir. Rusiya təkcə parlamentlər səviyyəsində deyil, həyatın digər sahələrində də Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdır.

Səmimi qəbul üçün təşəkkürünü bildirən Milli Məclisin Sədri Sahibə Qafarova qeyd edib ki, məlum pandemiya səbəbindən Rusiyaya nəzərdə tutulan bu səfər gec həyata keçirildi. Ümidvaram ki, bizim qarşılıqlı səfərlərimiz bundan sonra da davam edəcək. Bizim birlikdə müzakirə etməli olduğumuz çox məsələlər var.

Qeyd olunub ki, qarşılıqlı münasibətlərin inkişafında dövlət başçıları İlham Əliyevin və Vladimir Putinin qarşılıqlı etibara əsaslanan münasibətləri və mütəmadi görüşləri böyük rol oynayıb. Sahibə Qafarova ikitərəfli münasibətlərin inkişafında Azərbaycan və Rusiya parlamentlərinin rolunu qeyd edib, bu sahədə hər iki ölkənin parlamentində fəaliyyət göstərən dostluq qruplarının əhəmiyyətini vurğulayıb. Bildirib ki, ölkələrimiz beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq edir. Bildiyiniz kimi, Rusiyanın bu quruma qayıtması məsələsinin müzakirə olunduğu Avropa Şurası Parlament Assambleyasının ötənilki iyun sessiyasında Azərbaycan nümayəndə heyəti bütövlükdə çıxış edərək Rusiyanın AŞ PA-ya qayıtmasına səs verdi. Milli Məclis və Federal Məclis arasında daimi ikitərəfli parlamentlərarası komissiyanın mövcudluğu təqdirəlayiqdir.

Sahibə Qafarova bildirib ki, bizim ölkəmiz çoxmillətli və çoxkonfessiyalı olmaqla, zəngin mədəni və mənəvi irsə və multikulturalizm sahəsində böyük təcrübəyə sahibdir. Buna görə də ölkəmiz hər zaman digər xalqlara və dinlərə, dünya mədəniyyətlərinin müxtəlifliyinə qarşı tolerantlıq nümayiş etdirib. Bu baxımdan Cənubi Qafqazda ən çox etnik rusun Azərbaycanda yaşaması tamamilə təbiidir.

Qeyd olunub ki, ölkələrimiz arasında 200-dən çox ikitərəfli hökumətlərarası, dövlətlərarası və idarələrarası sənədləri özündə birləşdirən güclü bir hüquqi baza yaradılıb. Bu da iki ölkənin bütün sahələrdə uğurlu əməkdaşlığını şərtləndirir.

Sonra görüşdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanın Qərb bölgəsində - Tovuz rayonu ilə sərhəddə baş vermiş silahlı toqquşmalar barədə danışılıb. Sahibə Qafarova deyib ki, biz problemin beynəlxalq hüquq normaları çərçivəsində, ədalətli həllinə tərəfdarıq. Sülh danışıqları baş tutmasa Azərbaycan öz torpaqlarını işğaldan azad edəcək. Vyaçeslav Volodin bildirib ki, Rusiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Problemin sülh yolu ilə həllinin tərəfdarıdır.

Söhbət zamanı tərəfləri maraqlandıran digər məsələlər ətrafında müzakirələr aparılıb.

Görüşün sonunda Milli Məclisin Sədri Sahibə Qafarova həmkarını ona uyğun bir vaxtda Azərbaycana rəsmi səfərə dəvət edib.

# Milli Məclisin Sədri Moskvada "Naməlum əsgər" məzarını ziyarət edib



**Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində Moskva şəhərinin "Aleksandr" bağına gəlib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti burada "Naməlum əsgər" məzarının önünə əklil qoyub. Rusiya uğrunda canından keçən övladların xatirəsini yad edib.

# Sahibə QAFAROVA: "Azərbaycan xalqı heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək"

Rusiya Federasiyasında səfərdə olan Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti sentyabrın 23-də bu ölkənin Xarici İşlər naziri Sergey Lavrovla görüşüb.



AZƏRTAC xəbər verir ki, Milli Məclisin Sədri Sahibə Qafarovanı və nümayəndə heyətini salamlayan Sergey Lavrov bu səfərin Rusiya-Azərbaycan münasibətlərinin daha da inkişafına dəyərli töhfə olacağına inamını bildirib.

Qeyd edilib ki, Rusiya tərəfi yeni tərkibli Milli Məclisin nümayəndə heyətinin ilk səfərlərdən birini Rusiyaya etməsini yüksək qiymətləndirir. Ümumiyyətlə, yüksək səviyyəli dövlət məmurlarının, o cümlədən Azərbaycanın yeni Xarici İşlər nazirinin Rusiyaya bu cür səfərləri tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir. Sergey Lavrov qeyd edib ki, Azərbaycan rəsmiləri ilə aparılan söhbətlər zamanı hər iki ölkənin prezidentləri - Vladimir Putin və İlham Əliyev arasında telefon danışığı zamanı qaldırılan məsələlərin həlli üçün birgə səylərin artırılması qərara alınıb. Rusiya Azərbaycanla həyatın bütün sahələrində, o cümlədən diplomatik müstəvidə münasibətlərini daha da dərinləşdirmək niyyətindədir.

Rusiyanın Xarici İşlər naziri Azərbaycan parlamentinin Rusiya Federal Şurası Dövlət Duması ilə əlaqələrini, nümayəndə heyətlərimizin beynəlxalq parlament təşkilatlarında iştiraklarını önəmli hesab edib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, Azərbaycan-Rusiya münasibətləri çoxəsrlik ənənəyə malikdir və həmişə öz xarakterik xüsusiyyətləri ilə seçilib. Dövlət müstəqilliyimizi ilk tanıyan ölkələrdən biri olan Rusiya ilə Azərbaycan arasında bu illər ərzində strateji tərəfdaşlıq səviyyəsinə yüksələn güclü bir əməkdaşlıq formalaşıb. Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Prezidenti Vladimir Putin arasında müntəzəm təmaslar, etibarlı münasibətlər strateji tərəfdaşların əlaqələri kimi xarakterizə edilə bilən münasibətlərimizə dinamizm verir. Mükəmməl siyasi dialoqla yanaşı, ölkələrimiz arasında iqtisadi əlaqələr bu gün də dinamik inkişaf edir. Rusiya ölkəmizin əsas ticarət tərəfdaşlarından biridir.

İki ölkə arasında bölgələrarası əməkdaşlıq coğrafiyasının sürətlə genişlənməsinə diqqət çəkən Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bu gün Azərbaycan Rusiyanın subyektləri - Dağıstan və Tatarıstan, Həştərxan, Saratov, Sverdlovsk Ulyanovsk, Yekaterinburq, Vladimir, Volqoqrad və digər bölgələrlə fəal əməkdaşlıq edir.

Sədr qeyd edib ki, dövlətlərimizin parlamentləri də Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətlərin inkişafında böyük rol oynayır. Bu gün Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisi arasında 2001-ci il 9 yanvar tarixli Əməkdaşlıq Sazişinin müddəalarına əsaslanan əlaqələr daha dinamik xarakter alır. Azərbaycan və Rusiyanın milli parlament nümayəndə heyətləri ənənəvi olaraq ən vacib və aktual məsələlərdə bir-birini dəstəkləyərək müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq edirlər. Milli Məclisdə və Federal Məclisdə dostluq qrupları fəaliyyət göstərir və qurumlar arasında daimi ikitərəfli parlamentlərarası komissiya mövcuddur.

Milli Məclisin Sədri qeyd edib ki, Cənubi Qafqazda etnik rusların sayca ən çox yaşadığı ölkə Azərbaycandır. Ölkələrimiz arasında 200-dən çox ikitərəfli sənəddən ibarət güclü hüquqi baza mövcuddur.

Bunların arasında Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında Dostluq, Əməkdaşlıq və Qarşılıqlı Təhlükəsizlik Müqaviləsi, habelə Bakı Dostluq və Strateji Əməkdaşlıq Bəyannaməsi var.

Sahibə Qafarova bildirib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bölgənin istənilən inkişafına ciddi maneələr yaratmağa davam edir. Azərbaycan münaqişənin sülh yolu ilə siyasi həllinə sadiqdir. Münaqişənin həlli BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktı əsasında Azərbaycanın ərazi bütövlüyü çərçivəsində olmalıdır.

Bütövlükdə, ATƏT-in Minsk qrupunun nəticəsiz fəaliyyəti fonunda bu qrupun həmsədri olan Rusiya Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində fəal iştirak edir. Rusiya tərəfi bu sahədə çox səy göstərmişdir. Bununla birlikdə, son vaxtlar Ermənistanın baş naziri N.Paşinyanın münaqişənin həlli üçün kompromis variantının yalnız Azərbaycanın Dağlıq Qarabağ xalqının öz müqəddəratını təyinetmə hüququnu tanıması şərti ilə müzakirə edilə biləcəyi barədə "yeddi şərt" deyilən absurd açıqlamaları, münaqişənin sülh yolu ilə həlli üçün dünya birliyinin bütün səylərini puç edir. Həm də N.Paşinyanın erməni işğalı altındakı Dağlıq Qarabağın danışıqlar prosesinə qoşulması barədə verdiyi açıqlamalar tənqidlərə davam gətirmir.

Milli Məclisin Sədri Dağlıq Qarabağın tarixinə kiçik bir ekskurs edərək diqqətə çatdırıb ki, 1805-ci il mayın 14-də Azərbaycanda, Gəncə şəhərinin yaxınlığında yerləşən Kürəkçay qəsəbəsində Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında Kürəkçay müqaviləsi imzalanıb. Müqavilə Qarabağ xanı İbrahimxəlil xan və Rusiya imperiyasının generalı Pavel Sisianov tərəfindən imzalanıb. Sonralar 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri əsasında Azərbaycanın digər əraziləri də Rusiya imperiyasının tərkibinə keçdi. Rusiya imperiyası süquta uğradıqdan sonra 1918-ci ildə Azərbaycanda Azərbaycan Xalq Cümhuriyyəti yaradılıb və 2 il mövcud oldu. 1920-ci ildə isə, məlum olduğu kimi, Azərbaycanda Sovet hakimiyyəti quruldu. Bir il sonra isə - 1921-ci ildə Bolşevik partiyasının Qafqaz bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması haqqında qərar qəbul edib. Bəzi saxtakar erməni mənbələrinin əsassız olaraq iddia etdiyi kimi "təhvil verilməsi" deyil, "saxlanılması" haqqında. 1923-cü ildə Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycanın tərkibində Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması barədə fərman qəbul edib. Burada həyat səviyyəsi ölkənin digər regionlarından daha yüksək idi. Burada heç vaxt heç kəs milli və dini mənsubiyyətinə görə sıxışdırılmamışdı.

Ermənistan rəhbərliyi unutmamalıdır ki, müasir dünyada Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı faktını "Ermənistanın və "Artsax"ın ümumi təhlükəsizlik sistemi" kimi qələmə verərək gizlətmək alınmayacaq. Xüsusən də Ermənistanın özünün Azərbaycanın Tovuz bölgəsində döyüşlərin başlanmasına səbəb olmasından və Qarabağın hüdudlarından kənarda Ermənistanın məhz bölgə üçün bütövlükdə önəmli olan infrastruktur obyektlərini hədəf almasından sonra işğal faktını gizlədə bilməyəcək. Bütün bunlar beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyasının və 1977-ci il iyunun 8-də qəbul edilmiş Əlavə Protokolunun ciddi şəkildə pozulması deməkdir və hərbi cinayət kimi qiymətləndirilir. Həmin konvensiyaların ziddinə olaraq bu gün Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən Suriya və Livan qaçqınlarının qanunsuz məskunlaşdırılması xüsusi narahatlıq doğurur. Azərbaycan istənilən halda öz torpaqlarını işğaldan azad edəcək. Azərbaycan xalqı heç vaxt öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək.

Sergey Lavrov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bildirib ki, Rusiya ATƏT-in Minsk qrupunun həmsədri kimi problemin həllinə öz dəstəyini verir və bu sahədə səylərini əsirgəmir. Rusiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

Milli Məclisin Sədri Sahibə Qafarova ATƏT-in Minsk qrupunun həmsədri kimi Rusiyanın Dağlıq Qarabağ münaqişəsinin həllində vasitəçi olaraq əlindən gələni əsirgəməyəcəyinə inamını ifadə edib.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan parlament nümayəndə heyətinin Rusiya Federasiyasına səfəri davam edir.

# Ermənistan işğal etdiyi torpaqlarımızı qeyd-şərtsiz geri qaytarmalıdır

**"Ermənistan tərəfi son vaxtlar öz təcavüzkar siyasətini davam etdirərək münaqişənin artıq hərbi yolla həll edilməsini qaçılmaz edir. Aydın məsələdir ki, Ermənistan özbaşına deyil, havadarlarına güvənərək ölkəmizin ərazisinin bir hissəsini işğal edib. Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "ermənilər təkbaşına bizim torpaqlarımızı işğal edə bilməzdilər" fikri, əslində, açıq siyasi mesajdır".**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclis Sədrinin müavini Adil Əliyev bildirib.

Adil Əliyev deyib: "Biz hər zaman münaqişənin dinc yolla nizama salınmasının, beynəlxalq hüququn hamılıqla qəbul edilmiş norma və prinsipləri əsasında problemin həll olunmasının tərəfdarı olmuşuq. Buna baxmayaraq, öz hərbi gücünə arxalanan Azərbaycan üçün müharibə ehtimalı həmişə aktualdır.

Son hadisələr göstərir ki, Ermənistan tərəfi münaqişənin dinc yolla nizama salınmasını istəmir, sadəcə olaraq, danışıqlar görüntüsü yaratmağa çalışır. Onlar münaqişənin həll olunması ilə əlaqədar yeddi şərt irəli sürsələr də, bu absurd düşüncənin adekvat cavabını da, təbii ki, dərhal aldılar. Onlara bildirildi ki, yeddi şərtin qarşısında Azərbaycan tərəfi cəmi bir şərt irəli sürür - torpaqlarımız qeyd-şərtsiz azad olunmalıdır.

Ermənistan tərəfi Azərbaycan Ordusunun gücünə bələddir. Onlar anlayırlar ki, Aprel və Tovuz döyüşlərində ordumuzun çox az bir hissəsinin iştirakı ilə biz böyük uğur əldə etmişik. Düşmən qısa müddət ərzində təxribat törədir və bundan dərhal sonra sülh danışıqları istəyir, üzvü olduğu təşkilatlara atəşkəsin bərpa olunması və özünün müdafiəsi üçün yalvarır.

Bu gün Ermənistan hakimiyyətinin danışıqları imitasiya etməsi, təbii ki, başadüşüləndir, bununla onlar əlavə vaxt qazanmaq istəyirlər. Lakin istənilən halda danışıqlar uzun müddət davam edə bilməz. Ermənistan tərəfi danışıqlar prosesini artıq çoxdan pozub və hazırda ona uyğun cavabını alır.

Hazırda ölkəmizdə ehtiyatda olan hərbi qulluqçuların bir qisminin "Hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hərbi təlimlərə cəlb edilməsi xalqımız tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanır. Müharibə olmasa belə, Aprel döyüşləri zamanı, iyul ayında baş verən təxribatın qarşısı alındığı vaxt, elə bu gün də xalqımız böyük əhvali-ruhiyyə ilə yaşayıb və yaşayır.

Biz xalq olaraq bu gün müharibəyə hazırıq və düşmən də başa düşür ki, müharibə başlayarsa, bu, Ermənistan dövlətinin süqutu ilə sonlanacaq. Bu məqamda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin könüllülərin cəbhəyə getməsi üçün qeydiyyata alınması barədə müraciətindən sonra vətəndaşlarımızın yaşından asılı olmayaraq könüllü surətdə hərbi xidmətə getmək üçün kütləvi şəkildə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli şöbələrinə müraciətlərini bir daha xatırlatmaq yerinə düşər.

Onu da vurğulamaq lazımdır ki, bu ilin iyul ayında baş vermiş Tovuz hadisələri zamanı Azərbaycanın müstəqillik tarixində ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən 43 siyasi partiyanın birgə, 4 siyasi partiyanın isə ayrılıqda Ali Baş Komandanın ətrafında birləşməsi barədə bəyanatları ölkədə sağlam iqtidar-müxalifət münasibətlərinin formalaşmasının bariz nümunəsidir.

Yaxın keçmişdə baş vermiş və önəmli olan daha bir reallığa nəzər salaq. Məlum olduğu kimi, Gürcüstan tərəfi Ermənistana silah daşınması üçün öz ərazisindən istifadə etməyə imkan vermədi. Təbii ki, Gürcüstan hakimiyyətinin belə bir qərar qəbul etməsi bu ölkənin Azərbaycanla sıx münasibətləri və dövlətimizin regionda güclü mövqeyə malik olması ilə bağlıdır. Gürcüstan uzun illər ərzində mehriban qonşuluq əlaqələri qurduğu Azərbaycan kimi bir tərəfdaşını itirmək istəmir və bu münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə tərəfdardır.

Görünən odur ki, ölkəmiz bu müddət ərzində ordu quruculuğunda və daxili siyasətdə nailiyyətlər əldə etməklə yanaşı, eyni zamanda Türkiyənin, Gürcüstanın və bir çox digər ölkələrin timsalında özünə sadiq dostlar qazanıb.

Bütün dünya birliyi artıq görür ki, Ermənistan daim ayrı-ayrı ölkələrə qarşı əsassız ərazi iddialarında olan, öz maraqlarını daim hər şeydən üstün tutan uğursuz bir dövlətdir. Ermənistan tərəfinin yürütdüyü təcavüzkar siyasət isə, sadəcə, Ermənistan hakimiyyətinin süqutunu daha da sürətləndirir. Bu günədək ayrı-ayrı təşkilatların, xüsusilə də Soros Fondunun diktəsi ilə hərəkət etdikləri üçün düşdükləri çətin vəziyyətdən çıxmaqları da artıq qeyri-mümkündür.

Bizim, Azərbaycan xalqı olaraq yeganə məqsədimiz Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında daha sıx birləşərək, dövlətin maraqlarını bütün maraqlardan üstün tutaraq, düşmənin və onun havadarlarının xain əməllərinin layiqli cavabını verməkdir.

# Ali Baş Komandanın qətiyyətli əzmkarlığı Azərbaycanın növbəti qələbəsinin zəminidir

**Mövcud olduğu regionun lider ölkəsi sayılan Azərbaycan ərazi bütövlüyünü bərpa etmək üçün güclü orduya, həmçinin tələb olunan digər bütün resurslara malikdir. İşğal edilmiş ərazilərin azad olunması üçün hərbi əməliyyatlara başlayacağı təqdirdə, Ermənistanın Azərbaycanın qarşısında duruş gətirə bilməyəcəyi təkcə beynəlxalq aləmdə yox, elə ermənilərin böyük əksəriyyəti tərəfindən də etiraf olunur.**



Lakin problemin sülh yolu ilə həlli üçün bütün imkanlar hələ tükənmədiyindən Azərbaycan ərazi bütövlüyünün bərpası məqsədilə diplomatik cəbhədə miqyasını genişləndirməkdədir. Bu, həm də Azərbaycanın sülh yoluna sadiq olduğunun göstəricisidir.

Son dövrlərdə Ermənistan hakimiyyətinin bütün beynəlxalq konvensiyalara zidd addımları göstərir ki, təcavüzkar ölkə məkrli niyyətindən, terrorçu xislətindən əl çəkmək istəmir. Hərbi təxribatlar, silahlanma, işğal olunmuş Azərbaycan torpaqlarında qanunsuz məskunlaşdırma siyasəti bu ölkənin sülh danışıqlarından imtinasını aşkar şəkildə ortaya qoyur.

Bu durum isə əlbəttə ki, Azərbaycanı narahat etməyə bilməz. Çünki mövcud vəziyyət göstərir ki, Ermənistanın terrora dəstək verən siyasi hakimiyyəti açıq-aşkar Azərbaycanı təxribata çəkir. Beynəlxalq təşkilatlar isə yenə də təcavüzkarın çirkin oyunlarına göz yumurlar. ATƏT-in Minsk qrupunun son hadisələrdə Ermənistana heç bir təzyiq göstərməməsi Azərbaycan xalqının ciddi etirazına səbəb olub.

Bütün dövrlərdə olduğu kimi, Azərbaycanın milli maraqlarına təsir edən hər bir məsələni xüsusi nəzarətində saxlayan, bununla əlaqədar istənilən ölkə, beynəlxalq qurum qarşısında kəskin məsələ qaldıran və onların həllinə nail olan, milli maraqları qətiyyətlə, xüsusi prinsipiallıqla müdafiə edən Prezident İlham Əliyev yenə də xalqı narahat edən məsələyə dərhal reaksiya verdi. Dövlət başçısı həm danışıqlar prosesi ilə bağlı əsl həqiqətləri açıqladı, həm də BMT-nin ali tribunasından Ermənistana, işğalçının havadarlarına sərt xəbərdarlıq etdi.

Bundan öncə cənab Prezident sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimindən sonra televiziya kanallarına müsahibəsində bildirdi ki, əgər Ermənistan bu təxribatlarını davam etdirsə, Azərbaycan öz siyasətinə yenidən baxmalı olacaq və işğalçı üçün nəticələr çox ağır olacaq.

Bu, ilk növbədə, Prezident İlham Əliyevin yürütdüyü siyasətə, dəyişməz mövqeyinə sadiqlik nümayişi idi. Ölkə ictimaiyyəti Ali Baş Komandanın milli maraqlar naminə ciddi addımlar atdığına və istənilən müzakirələrdə Azərbaycan üçün mühüm sayılan məsələləri qaldırmaqdan qətiyyən çəkinmədiyinə daim şahidlik edir. Son bir neçə ayda Prezidentin bu istiqamətdəki prinsipial mövqeyi, qətiyyətli addımları, diplomatik bacarığı beynəlxalq birliyə növbəti mesaj oldu. Hər kəs bir daha əmin oldu ki, İlham Əliyevin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll istiqamətində irəli sürdüyü prinsiplər dəyişməzdir.

Sentyabrın 21-də isə Azərbaycan Prezidenti Ermənistanın son təxribatlarını bir daha dünya birliyinə çatdırdı. İştirak etdiyi bütün beynəlxalq toplantılarda Azərbaycanın haqq səsini dünyaya bəyan edən Prezident İlham Əliyev BMT Baş Assambleyasının sessiyası çərçivəsində təşkilatın 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda yenidən qətiyyətli və prinsipial siyasətini nümayiş etdirərək təcavüzkarın məkrli siyasətini ifşa etdi.

Həm Qoşulmama Hərəkatının sədri, həm də Azərbaycan Prezidenti kimi çıxış edən dövlət başçısı Ermənistan "rəsmilərinin" sərsəm ifadələrinə çox dəqiq və real faktlara əsaslanaraq fikirlər söyləməklə cavab verdi.

Cənab İlham Əliyev Ermənistanın baş nazirinin təxribatçı əməllərini 182 ölkənin dövlət və hökumət başçısının diqqətinə çatdıraraq dedi ki, N.Paşinyan Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak etməyə məcbur ediləcək on minlərlə mülki vətəndaşdan ibarət silahlandırılmış mülki könüllülər dəstələrinin yaradılmasını elan edib. Bu, Ermənistan rəhbərliyinin yeni təcavüzkar niyyətini açıq şəkildə nümayiş etdirir. Ermənistanın müdafiə naziri Azərbaycanı "yeni ərazilər uğrunda yeni müharibə" bəyanatları ilə hədələyir. Bu da onu təsdiq edir ki, Ermənistan Azərbaycana qarşı müharibəyə, təcavüzə hazırlaşır.

Təbii ki, Azərbaycan bunu açıq-aydın görür və düşmənin istənilən təxribatına hər zamankı kimi adekvat cavab verəcək. Ali Baş Komandan dəfələrlə bəyan edib ki, Azərbaycan Ordusu xalqımızın qürur, dövlətimizin güvənc mənbəyidir. Bu gün Azərbaycan Ordusunun maddi-texniki təchizatı, döyüş qabiliyyəti, şəxsi heyətin vətənpərvərliyi, ruh yüksəkliyi, nizam-intizamı və peşəkarlığı qarşıda qoyulan bütün tapşırıqları uğurla yerinə yetirməyə əsas verir.

Ermənistanda həm terrorçu hakimiyyət, həm də ölkə ictimaiyyəti yaxşı başa düşür ki, onların xilas yolu Azərbaycanla münasibətlərin nizamlanmasından keçir. Münasibətlərin nizamlanmasının isə çox sadə yolu var, Prezident İlham Əliyevin yeganə şərti icra edilməlidir. Yəni erməni silahlı qüvvələri işğal edilmiş bütün torpaqlardan çıxarılmalı, Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli, Azərbaycan vətəndaşları öz doğma dədə-baba torpaqlarına qayıtmalıdırlar.

***Səttar MÖHBALIYEV,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı***

# Beynəlxalq hüququ yerə vuran Ermənistana bumeranq zərbəsi

**Sentyabrın 19-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda "Abşeron" yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak etdikdən sonra jurnalistlərə müsahibə verən Prezident İlham Əliyev müasir beynəlxalq münasibətlərin mühüm məsələlərinin, xüsusilə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin geniş təhlilini verdi. Dövlət başçısı Ermənistanın təxribatlar törətməsinə toxunaraq bildirdi ki, bu hadisələr sərhədyanı ərazidə mülki vətəndaşların ölümü ilə nəticələnib.**



İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya əlavə edilmiş 4 saylı protokolun 2-ci bəndinə əsasən, hər kəsin ölkə ərazisində sərbəst hərəkət etmək, özünə yaşayış yeri seçmək hüququ var. Bununla da həlak olan mülki Azərbaycan vətəndaşının bu hüququ Ermənistan dövləti tərəfindən pozulub.

"Azərbaycanın Ermənistan tərəfindən işğal olunan əraziləri" Dağlıq Qarabağ münaqişəsi ilə bağlı çox istifadə olunan deyimdir. BMT-də də Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi faktı qəbul olunub. Ermənistanın işğal etdiyi əraziləri danışıqsız, şərtsiz boşaltması haqqında 4 qətnamə (822, 853, 874 və 884 saylı) də qəbul edilib. Bəs qərarı kim, hansı təşkilat yerinə yetirməlidir? Təəssüf ki, beynəlxalq təşkilatlar Ermənistanın beynəlxalq hüququ yerə vurmasının qarşısını ala bilmirlər. Amma sual yaranır: doğrudanmı ala bilmirlər? Hadisələr göstərir ki, istəsələr, ala bilərdilər. Axı, dünyanın müxtəlif yerlərində işğalçılara verilən dərslərdən hamımızın xəbəri var. Lakin dekorativ cəzalandırmalar istisna edilməklə, Ermənistanın qulağını buran, dərsini verən yoxdur.

Azərbaycan beynəlxalq hüquqa riayət edərək bütün zamanlarda məsələnin sülh yolu ilə həllinə tərəfdar olub. Atəşkəs rejimi də Azərbaycanın beynəlxalq hüquqa ehtiramı ilə əlaqədardır. Lakin Ermənistan atəşkəs haqqında müqaviləni də çoxdan yerə vurub. Hər gün atəşkəsin dəfələrlə pozulmasının səbəbkarı məhz Ermənistandır.

Təəssüflər olsun ki, Qərb ölkələrindən və beynəlxalq təşkilatların pəncərələrindən dünyaya baxanlar Ermənistanda olanları və onun qonşularına qarşı işğalçılıq siyasətini görmək istəmirlər. Xristian təəssübkeşliyi ilə Ermənistanın beynəlxalq hüququ tapdalamasından tutmuş işğalçılığına qədər gözlərini yumurlar. Biz doğrudanmı bu qədər sadəlövhük ki, Avropadakı təşkilatları "azadlıq carçıları" kimi qəbul edirik?! Dünyanın gözü qarşısında onların emissarları Ermənistana gəlir, saxta soyqırımı abidəsinə çiçək qoyur, 100 il bundan əvvələ ünvanlanan "erməni soyqırımı" nağılları ilə geri qayıdırlar.

Hərdən beynəlxalq təşkilatların gündəliyinə nəzər salıram ki, görüm onlar Ermənistanın işğalçılıq fəaliyyətini müzakirə edirlərmi? Təəssüf ki, bunu görmürəm. Amma tanımadığımız ölkələr var ki, onları dəfələrlə müzakirəyə çıxarırlar. Ermənistanın işğalçılıq siyasəti ilə əlaqədar isə beynəlxalq təşkilatlar, o cümlədən Minsk qrupu Alyaska sakitliyini poza bilmir. Ona görə tez-tez "Niyə susurlar" deyə soruşuruq. Etiraf etməyin vaxtı çoxdan çatıb ki, beynəlxalq təşkilatlar susmaqla fikirlərini və qərarlarını ifadə edirlər. Onların susqunluğu isə ermənilər üçün sərfəlidir. Beynəlxalq təşkilatlarda ikili standartlar baş alıb gedir. Özlərini elə aparırlar ki, sanki heç nə baş verməyib.

Buna görə də Prezident İlham Əliyev çox doğru olaraq deyir: *"Əgər onlar beynəlxalq hüququ yerə vururlarsa, biz niyə beynəlxalq hüququ gözləməliyik?!"*

Bəli, Ermənistana gəldikdə beynəlxalq hüquq ölü doğulursa, biz onu nə üçün gözləməliyik?

Azərbaycan ərazilərinin bir hissəsi Ermənistanın işğalı altındadır. Ona görə beynəlxalq hüquqa əsasən ərazi bütövlüyünü bərpa etmək ölkəmizin müstəsna haqqıdır. Azərbaycan bu haqqından istifadə edərək ərazi bütövlüyünü təmin edəcək. Çünki dövlətimizin və xalqımızın səbrinin bir həddi var. Prezidenti İlham Əliyev də Ermənistanın layiq olduğu, haqq etdiyi amansız zərbəyə diplomatik şəkildə işarə edir: *"Amma axırı onlar üçün pis olacaq"*.

O günü görmək arzusu ilə!

***Həsənbala SADIQOV,***
***professor, Əməkdar müəllim***

# Siyasi və hərbi təxribatları Ermənistana baha başa gələcək

*Əvvəli 1-ci səh.*

Hazırda Azərbaycanın yeganə problemi ərazilərinin işğal altında olmasıdır.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişənin sülh yolu ilə həlli istiqamətində ölkəmizin atdığı siyasi addımlar beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələri, ATƏT-in, Avropa Şurasının və digər beynəlxalq təşkilatların müvafiq sənəd və qərarlarına əsaslanır.

Lakin təəssüflə qeyd etməliyik ki, Minsk qrupu vasitəsilə aparılan sülh danışıqları 1994-cü ildəki atəşkəs razılaşmasından bəri nəticəsiz qalır. Bu günlərdə BMT Baş Assambleyasının 75-ci Sessiyası çərçivəsində BMT-nin 75 illiyinə həsr edilmiş Yüksək Səviyyəli İclasda Prezident İlham Əliyev bu ali təşkilatın tribunasından vaxtilə qəbul etdiyi qətnamələrin yerinə yetirilmədiyini diqqətə çatdıraraq deyib: *"BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Təəssüflər olsun ki, Ermənistan hələ də bu qətnamələrə məhəl qoymamaqda davam edir"*.

1994-cü ildən bəri problemin həlli ilə bağlı bir neçə variant nəzərdən keçirilib. Amma bütün həll variantları məhz Ermənistanın qeyri-konstruktivliyi ucbatından alınmayıb, işğalçı tərəf həm birbaşa, həm də dolayısı ilə regiondakı status-kvonun dəyişməz qalmasına çalışıb. Ən təəssüflüsü də odur ki, dünyada ədalətdən, ərazi bütövlüyündən, insan hüquqlarının qorunmasından dəm vuran beynəlxalq təşkilatların və dövlətlərin heç biri Ermənistana hansısa formada təsir etmək təşəbbüsü göstərməyib.

## Paşinyan sələflərinin yolunu gedir

2018-ci ildə Ermənistanda rəhbərlik dəyişdi. N.Paşinyan məhz S.Sarkisyan hakimiyyətinin səhvləri üzərində hakimiyyətə gəldi. Hansı ki, bu səhvlərdən biri S.Sarkisyanın öz xalqını yoxsulluq və səfalət içində saxlaması idi. Bunun da əsas səbəbi Azərbaycanın Ermənistanı təcavüzkar siyasətinə görə iqtisadi blokada vəziyyətinə salması, bütün regional layihələrdən kənar saxlamasıdır. Ermənistanın yeni baş naziri isə verdiyi vədləri yerinə yetirmək, xalqın rifahını və dövlətin inkişafını təmin etmək üçün, ilk növbədə, sülh danışıqlarında konstruktiv olmalı, təcavüzkar siyasətə son qoymalı idi.

Lakin Paşinyanın geridə qalan iki ildən artıq hakimiyyəti dövrü onun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə ziddiyyətli açıqlamalar verməsi və faktiki olaraq siyasi-hərbi təxribatları ilə danışıqlar prosesinə zərbə vurması ilə yadda qalıb. Ermənistanın baş naziri bütün açıqlamalarında, ilk növbədə, ölkəsinin işğalçılıq niyyətini ortaya qoyub. Onun ötən ilin avqustunda Azərbaycanın işğal olunmuş ərazilərini Ermənistan adlandırması, Ermənistanla qondarma rejimin birləşdirilməsinə çağırış etməsi isə danışıqlar prosesinin tamamilə pozulmasına hesablanmış siyasi təxribat idi. Bir neçə gün əvvəl jurnalistlərə müsahibəsində Prezident İlham Əliyev bununla bağlı deyib: *"Keçən il Ermənistan baş nazirinin səsləndirdiyi cəfəng fikirlər danışıqlar prosesinə ciddi zərbə vurdu. "Qarabağ Ermənistandır" deməklə nəinki o yalanı bütün dünyaya yaydı və bu da davam edir, eyni zamanda, danışıqlar prosesini mənasız edir. Əgər o hesab edir ki, Qarabağ Ermənistandır, onda nə barədə danışmaq olar? Əgər o, belə hesab edir ki, Qarabağ Ermənistandır, - halbuki bütün dünya bu cəfəng fikri rədd edib, - onda hansı sülh müqaviləsindən söhbət gedə bilər. Yəni, bu, siyasi təxribat idi"*.

Bu ilin iyul ayında Ermənistanın dövlət sərhədini pozaraq Azərbaycana yeni hücum cəhdi isə Paşinyanın hərbi təxribatı idi. Bu təxribatın qarşısı ordumuzun bölmələri tərəfindən rəşadətlə alındı. Düşmən əks həmlə və qisas əməliyyatı ilə ordumuzun gücünü yenidən hiss etdi, döyüş meydanında çoxsaylı itki verərək geri çəkilməyə məcbur oldu. Bu təxribat Ermənistanın daxilindəki ziddiyyətlərlə bağlı idi. Son aylar Ermənistanda daxili siyasi çəkişmələr pik həddə çatıb, digər tərəfdən hökumət koronavirusun sürətlə yayılmasının qarşısını heç cür ala bilmir. Ona görə Paşinyan hakimiyyəti çıxış yolunu hərbi təxribatlar yaradaraq diqqəti daxili problemlərdən yayındırmaqda görür.

Avqustun 23-də cəbhənin Goranboy rayonu istiqamətində baş verən növbəti hərbi təxribat hadisəsi isə bir daha Ermənistanın işğalçılıq və terror siyasəti yürütməsini təsdiqləyən faktdı. Hərbçilərimizin sayıqlığı, fədakarlığı və peşəkarlığı ilə düşmənin diversiya-kəşfiyyat qrupunun təxribat törətmək cəhdinin qarşısı layiqincə alındı. İfşa olunan diversantlar itki verərək geri qaçsalar da, onların komandiri əsir götürüldü.

## Nəticələr işğalçı üçün çox ağır olacaq

Ermənistanın son təxribatlarından biri də işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonların digər ölkələrdən gətirilən ermənilərlə məskunlaşdırılmasıdır. Atəşkəsin elan olduğu dövrdən indiyədək ermənilər bu istiqamətdə fəal iş aparırlar. İşğal etdikləri Azərbaycan ərazilərində diasporun maliyyəsi hesabına həyata keçirdikləri infrastruktur layihələri də qanunsuz məskunlaşmaya xidmət edir.

Avqustun 4-də Livanın paytaxtında baş vermiş məlum partlayışdan sonra isə İrəvanın əlinə yeni girəvə düşüb. Məlum olduğu kimi, Beyrutda baş vermiş partlayışdan sonra şəhərdə yaşayan ermənilər də zərər görüblər. Ermənistan Livana humanitar yardım göstərdiyini nümayiş etdirməyə çalışsa da, görünən odur ki, Paşinyan hakimiyyəti Beyrutdakı partlayışdan sonra evsiz-eşiksiz qalan ermənilərdən öz çirkin məqsədləri naminə istifadə etməyə çalışır. Ermənistanın bu əməlləri beynəlxalq humanitar hüququn, eləcə də 1949-cu il Cenevrə Konvensiyası və onun əlavə protokollarının kobud pozulmasıdır.

Bütün bu hərbi, siyasi təxribatlar nəticə etibarilə danışıqlar prosesinin aparılmasını mənasız edib. Lakin istənilən təxribatın və avantüranın nəticəsi Ermənistana baha başa gələcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: *"...Əgər öz çirkin planlarından əl çəkməsələr, onlar üçün nəticələr çox ağır olacaq. Onlar yeni müharibəyə hazırlaşırlar. Onların təmas xəttinə yaxın qüvvələrinin cəmləşməsi baş verir. Biz hər şeyi görürük, hər şeyi izləyirik. Onların bütün hərəkətlərini izləyirik. Əlbəttə ki, özümüzü müdafiə edəcəyik. Necə ki, Tovuzda özümüzü müdafiə etdik, bütün başqa istiqamətlərdə özümüzü müdafiə edəcəyik. Onlar üçün Tovuz hadisələri növbəti dərs oldu. Əgər yeni dərs almaq istəyirlərsə, biz buna hazırıq"*.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan gücündən istifadə edərək ərazi bütövlüyünə nail olacaq

*Əvvəli 1-ci səh.*

Digər tərəfdən, həm Ermənistana, həm də onun havadarlarına mesaj verdi ki, Azərbaycan bundan sonra da qətiyyətli mövqeyindən geri çəkilməyəcək, beynəlxalq hüququn yaratdığı bütün imkanlardan istifadə edərək ərazi bütövlüyümüzün təmininə nail olacaq.

Azərbaycan danışıqlar prosesində həmişə ədalətli, prinsipial və beynəlxalq hüquqa əsaslanan mövqe nümayiş etdirib. Bu dəyişməz mövqeyi Prezident İlham Əliyev xarici ölkələrə səfərlərində, eləcə də ölkəmizə gələn nüfuzlu beynəlxalq təşkilatların və dövlətlərin rəhbərlərinin diqqətinə dəfələrlə çatdırıb. Rəsmi Bakı münaqişənin məhz beynəlxalq hüququn normaları və beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında həllinin tərəfdarı kimi çıxış edir. İşğal faktı ilə barışmayacağını hər zaman bəyan edən Azərbaycan danışıqların sonadək nəticəsiz qalacağı təqdirdə münaqişənin həllində güc yoluna əl atacağını gizlətmir.

Ermənistan və Azərbaycan arasında 1994-cü il mayın 12-də atəşkəs rejiminin tətbiqini nəzərdə tutan Bişkek müqaviləsinin imzalanmasından 26 il keçsə də, Yerevanın qeyri-konstruktiv, təcavüzkar siyasəti üzündən münaqişəni dinc yolla tənzimləmək cəhdləri hələ ki fayda verməyib. Keçən illərdə ATƏT-in Minsk qrupunun həmsədrlərinin (ABŞ, Fransa, Rusiya) vasitəçiliyi ilə aparılan danışıqlar prosesi bir neçə dəfə problemin real həlli müstəvisinə yönəlsə də, Ermənistan rəhbərliyinin aşkar siyasi cığallığı və siyasi qətiyyətsizliyi üzündən sülhə gəlmək mümkün olmayıb. Ermənistanın təcavüzkar dövlət olmasına, işğalçılıq siyasəti yürütməsinə açıq-aşkar göz yumulur. Bu, bir yana, "demokratiya carçıları" Azərbaycandakı müsbət meyillərə kölgə salmağa çalışdıqları halda, təcavüzkar dövlətin daxilində cərəyan edən antidemokratik proseslərə, dövlətin antihumanist, insanlığa qarşı yönəlmiş zorakı addımlarına da göz yumurlar.

Beləliklə, Prezident İlham Əliyevin çıxışı bir daha beynəlxalq ali tribunadan Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsi kimi xarakterizə oluna bilər. Eləcə də dövlət başçısı hazırkı mərhələdə yeni torpaqların işğalı üçün hərbi-siyasi hazırlıq içərisində olan Ermənistanda Azərbaycana münasibətin nifrət üzərində qurulduğunu bildirərək qeyd etdi ki, təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığını nümayiş etdirir.

Təbii ki, Ermənistanın istənilən addımı cavabsız qalmayacaq. Bu baxımdan Prezident İlham Əliyev həm də işğalçıya xəbərdarlıq etdi. Əl atacağı istənilən hərbi təxribata görə Ermənistan böyük fəlakət yaşayacaq.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Atəşkəs rejimi 49 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən istifadə etməklə sutka ərzində atəşkəs rejimini 49 dəfə pozub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Ayqepar, Mosesqex, Çinari və Ayqedzor kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Ağdam, Koxanəbi, Ağbulaq və Muncuqlu kəndlərində, Yeğeqnadzor rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Günnüt kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Füzuli rayonunun Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan və Özbəkistan deputatları arasında videokonfrans keçirilib

**Sentyabrın 23-də Milli Məclisin Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Özbəkistan Ali Məclisinin Azərbaycanla əməkdaşlıq üzrə dostluq qrupunun üzvləri ilə birgə videokonfrans keçiriblər.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə videokonfransın təşəbbüskarı olan Özbəkistan Ali Məclisinin təmsilçisi - Qanunvericilik Palatasının Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Dilorom Fayziyeva ölkələrimiz və xalqlarımız arasında mövcud olan tarixi, ədəbi, mədəni, iqtisadi əlaqələrdən söz açdı. O, dövlət müstəqilliyi dövründə bu əlaqələrin daha da genişlənərək yeni keyfiyyət qazandığını, möhkəmləndiyini vurğuladı, xalqlarımızın bir-birinə dostluq və qardaşlıq münasibətləri bəslədiyini qeyd etdi.

Parlamentlərarası əlaqələrin intensivləşməsinin, qanunvericilik sahəsində təcrübə mübadiləsinin, beynəlxalq qurumlarda əməkdaşlığın mühüm əhəmiyyət daşıdığını bildirən Dilorom Fayziyeva vurğuladı ki, beynəlxalq təşkilatlarda Azərbaycanın güclü və müstəqil yeri var.

Sonra Milli Məclisin Aqrar siyasət komitəsinin sədri, Azərbaycan-Özbəkistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Eldar İbrahimov videokonfrans formatında onlayn görüş imkanına görə özbək həmkarlarına təşəkkürünü çatdırdı. O, iki ölkənin qanunverici orqanları arasındakı əlaqələrdən, qarşılıqlı səfərlərdən, dostluq qruplarının fəaliyyətindən söz açdı, indiyədək işçi qrupların üzvləri arasında 10-dan çox görüş keçirildiyini vurğuladı. Deputatlarımızın İslam Əməkdaşlıq Təşkilatı, MDB, GUAM, BMT, ATƏT, TÜRKPA, AŞ PA və digər beynəlxalq qurumlarda yaxından əməkdaşlıq etdiyini, bir-birinin mövqeyini dəstəklədiklərini bildirdi.

Eldar İbrahimov məmnunluqla qeyd etdi ki, Özbəkistan ardıcıl olaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə siyasi həllinə tərəfdar çıxır. Bildirdi ki, indiyədək ölkələrimiz arasında 100-dən çox dövlətlərarası və hökumətlərarası müqavilə imzalanıb. Çoxtərəfli əməkdaşlığın inkişaf edib genişlənməsində dövlət başçılarının, həmçinin parlament sədrlərinin qarşılıqlı səfərlərinin və beynəlxalq sammitlərdəki görüşlərinin xüsusi rolu var. Bu il Azərbaycanla Özbəkistan arasında diplomatik münasibətlərin qurulmasının 25 ili tamam olur.

Sonra videokonfransda Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev və Özbəkistanın ölkəmizdəki səfiri Bahrom Aşrafxanov ikitərəfli qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsi perspektivlərinə dair fikirlərini açıqladılar, təkliflərini diqqətə çatdırdılar.

Videokonfransda Azərbaycan parlamentinin deputatları Azay Quliyev və Ziyad Səmədzadə, Özbəkistan parlamentinin deputatları Adxan Şadmanov, Oydin Abdullayeva və Abdullo Aslonov fikirlərini bölüşdülər. Qarşılıqlı maraq doğuran bir sıra təkliflər irəli sürüldü.

Təkliflərdə vurğulandı ki, Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin artırılması, iqtisadi əlaqələrin güclənməsi, investisiyaların təşviqi, biznes forumlarının təşkili, ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupu çərçivəsində əməkdaşlığın dərinləşdirilməsi və digər sahələrdə geniş perspektivlər var.

Bütün çıxışlarda pandemiyanın tezliklə bitməsi və canlı görüşlərin keçirilməsinə imkan yaranması arzusu səsləndi.

Videokonfransda Milli Məclisin deputatlarından Özbəkistanla parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Musa Quliyev, Elman Nəsirov və Cavanşir Paşazadə, həmçinin Özbəkistan parlamenti tərəfdən Azərbaycanla dostluq qrupunun üzvləri Farxod Bokiyev və Odiljon İminov da iştirak edirdilər.




# «OPEC+» öhdəliklərinə sadiqdir

## M.BARKİNDO: "2021-ci ilə qədər qlobal neft bazarında cüzi canlanma müşahidə ediləcək"

*Əvvəli 1-ci səh.*

Bildirilib ki, bu, davam edən balanslaşdırma səyləri üçün vacibdir və neft bazarında uzunmüddətli sabitliyin təmin olunmasına kömək edir.

Qeyd edək ki, "OPEC+" üzrə gündəlik neft hasilatının 2018-ci ilin oktyabr ayı səviyyəsindən 7,7 milyon barel ixtisarı prosesi çərçivəsində Azərbaycan avqust ayında sutkada xam neft hasilatını 133,4 min barel azaldıb.

"Əməkdaşlıq Bəyannaməsi"nə əsasən, 2018-ci ilin oktyabr ayında gündəlik xam neft hasilatı 718 min barel olan ölkəmiz cari ilin avqust-dekabr aylarında neft istehsalını sutkada 131 min barel azaltmaqla 587 min barel həcmində saxlamalıdır. Öhdəliklərin icrası məqsədilə gündəlik xam neft hasilatı 2018-ci ilin oktyabr ayındakı səviyyələrdən, "Azəri-Çıraq-Günəşli"də 567 min bareldən azaldılaraq 461 min barel, SOCAR ("Azneft" İB, birgə müəssisələr və əməliyyat şirkətləri) üzrə isə 151 min bareldən ixtisar edilərək 126 min barel olmalıdır.

12 aprel tarixli "OPEC+" razılaşmasının gündəlik xam neft hasilatının ümumilikdə 7,7 milyon barel azaldılması ilə bağlı ikinci mərhələsi 1 avqust - 31 dekabr dövrünü əhatə edir.

JMMC budəfəki iclasında bütün dünyada iqtisadiyyatın bərpa prosesinin zəiflədiyini və bəzi ölkələrdə COVID-19-a yoluxma hallarında artım olduğunu diqqətə çatdırıb. Komitə mövcud vəziyyətdə fəal olmağın vacibliyini vurğulayıb. "Əməkdaşlıq Bəyannaməsi"nin iştirakçısı olan ölkələrə ehtiyac yaranacağı təqdirdə əlavə zəruri tədbirlər görməyə hazır olmalarını tövsiyə edib. Səudiyyə Ərəbistanı "OPEC+" alyansına üzv ölkələri hasilatın azaldılmasına dair öhdəliklərə dəqiq əməl etməyə və bu məsələdə şəffaflıq göstərməyə çağırıb. Krallığın Neft naziri Əbdüləziz bin Salman alyansın nazirlər səviyyəsində keçirilən Birgə Monitorinq Komitəsinin aylıq iclasının yekunlarına dair mətbuat konfransında müvafiq sazişi imzalayan tərəflərin qlobal neft bazarında sabitliyin təmin edilməsində maraqlı olmalarının vacibliyini bildirib.

Nazir əlavə edib ki, ölkəsi və Birləşmiş Ərəb Əmirlikləri son 2 ayda hasilatı sazişdə nəzərdə tutulduğu səviyyədən də çox azaldıb. Lakin avqustun sonunda şəffaflığın təmin edilməsində bəzi problemlər meydana çıxıb. O deyib ki, hər iki ölkə hasilatı rekord səviyyədə azaltmaqla xam neftin qiymətlərinin sabit qalmasına çalışıb.

Əbdül Əziz bin Salman həmçinin vurğulayıb ki, gələcəklə bağlı qeyri-müəyyənliklər fonunda yaxın aylarda hasilatın artırılması gündəmdə deyil. Eyni zamanda alyansa üzv ölkələr pandemiyanın yeni dalğasının başlayacağı təqdirdə hər cür ekstremal vəziyyətə hazır olmalıdır.

"2021-ci ilə qədər qlobal neft bazarında cüzi canlanma müşahidə ediləcək". Bu sözləri isə OPEC-in baş katibi Məhəmməd Sanusi Barkindo Birgə Texniki Komitənin 44-cü iclasında deyib. "Bu, tələbat artımı gözləntiləri ilə əlaqələndirilir və "Əməkdaşlıq Bəyannaməsi" üzrə istehsal kvotalarına düzəlişlərlə dəstəklənir", - deyə o bildirib.

OPEC-in baş katibi mövcud problemlər qarşısında səbr göstərməyi məsləhət bilib: "Yadda saxlamalıyıq ki, bərpa prosesi iqtisadiyyatın və xüsusilə də neft bazarının cari il yaşadığı tənəzzül qədər sürətli olmayacaq. Qeyri-müəyyənliyi nəzərə alaraq sayıq qalmalıyıq".

Qeyd edək ki, Birgə Texniki Komitə "OPEC+" Nazirlərinin Birgə Monitorinq Komitəsinə neft bazarındakı inkişaflarla bağlı tövsiyələr verən təşkilatdır.

Birgə Texniki Komitənin növbəti iclasının bu il oktyabrın 15-də, Birgə Monitorinq Komitəsinin toplantısının isə həmin ayın 19-da keçirilməsi planlaşdırılır.

Xatırladaq ki, OPEC - Neft İxrac Edən Ölkələr Birliyidir. Bu təşkilat neft ixrac edən ölkələr tərəfindən neftin qiymətinin tənzimlənməsi məqsədi ilə yaradılıb. Onun üzvləri iqtisadiyyatı əsasən neftdən asılı olan dövlətlərdir.

1960-cı il sentyabr ayında Bağdadda keçirilən konfransda yaradılan OPEC qeyri-hökumət təşkilatı kimi daimi fəaliyyət göstərir.

Yeri gəlmişkən, OPEC-in 60 illiyinə həsr olunmuş xüsusi bülletendə Azərbaycanın Energetika naziri Pərviz Şahbazovun qeydləri də dərc olunub. Nazir birlik, həmrəylik və əməkdaşlığın OPEC-in 60 illik fəaliyyətində bütün məram və məqsədlərinin zirvəsini təşkil etdiyini, OPEC ideyasının reallığa çevrilməsini neft ölkələri arasında əməkdaşlığa inamın nəticəsi olduğunu vurğulayıb. Müəllif Azərbaycanın "OPEC+" formatı çərçivəsində təşkilatla əməkdaşlığından da bəhs edib. O həmçinin qeyd edib ki, hazırkı çətin sınaqlar dövründə OPEC və qeyri-OPEC ölkələrinin əməkdaşlığı və həmrəyliyi təşkilata ən gözəl yubiley hədiyyəsidir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "İki sahil" qəzeti "Neftçilər Günü"nə həsr olunmuş xüsusi buraxılış hazırlayıb

**"İki sahil" qəzeti "Neftçilər Günü"nə həsr olunmuş xüsusi buraxılış hazırlayıb.**




AZƏRTAC xəbər verir ki, 20 sentyabr 1994-cü il müasir müstəqil Azərbaycan dövlətinin tarixinə mühüm hadisə kimi daxil oldu. Həmin gün Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və bütün dünyada "Əsrin müqaviləsi" adı ilə tanınan neft sazişi imzalandı. Bu müqavilə Azərbaycanın neft tarixinin şanlı səhifəsini açdı. Məhz müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, yeni neft strategiyasının müəllifi, Ulu Öndər Heydər Əliyevin 2001-ci il 16 avqust tarixli fərmanı ilə sentyabrın 20-si "Neftçilər Günü" kimi təsis olundu və həmin vaxtdan başlayaraq hər il bu bayram dövlətimizin düşünülmüş və məqsədyönlü siyasəti, neftçilərimizin fədakar əməyi sayəsində əldə edilən yüksək sosial-iqtisadi göstəricilərin fonunda böyük əhvali-ruhiyyə ilə qeyd edilir.

Həmin tarixdən bizi 26 illik zaman ayırır. "İki sahil" qəzetinin "Neftçilər Günü"nə həsr olunmuş 100 səhifəlik xüsusi buraxılışında Azərbaycan neft-qaz sənayesinin 26 ildə keçdiyi inkişaf yolunun təhlili aparılıb, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının uğurla həyata keçirilməsinə davamlı töhfələr verən SOCAR-ın və onun strukturlarının gördüyü işləri əks etdirən maraqlı yazılar dərc edilib, rəngli şəkillər və yüksək poliqrafik tərtibat xüsusi diqqət çəkir.

Neft strategiyasının uğurla həyata keçirilməsində neftçilərin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək dəyərləndirilib. Hər il 20 sentyabr - "Neftçilər Günü" ərəfəsində neçə-neçə qabaqcıl neftçinin yüksək dövlət mükafatları ilə təltif edilməsi də cəmiyyətimizin avanqard qüvvəsi olan neftçilərin əməyinə verilən qiymətin, onlara göstərilən diqqətin bariz nümunəsidir. Xüsusi buraxılışda Prezident İlham Əliyevin 2020-ci il 19 sentyabr tarixli müvafiq sərəncamları, həmçinin neft və qaz sənayesinin inkişafında xüsusi xidmətləri olan şəxslərin SOCAR-ın "Fəxri neftçi" döş nişanı ilə təltif edilməsi öz əksini tapıb.

Xüsusi buraxılışda SOCAR-ın prezidenti Rövnəq Abdullayevin "Neftçilər Günü" münasibətilə yer alan təbrikində bildirilir ki, müstəqil Azərbaycanın inkişaf və tərəqqisi Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin bəhrəsi olan yeni enerji strategiyasının uğurları ilə sıx bağlıdır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm enerji layihələrinə imza atan ölkəmiz davamlı və dinamik sosial-iqtisadi inkişaf yolunda inamla addımlayır. Neft-qaz sənayesinin uğurları qeyri-neft sektorunun inkişafına da güclü təkan verərək iqtisadi yüksəlişin, xalqın artan rifahının möhkəm təminatına çevrilib.

SOCAR-ın birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadənin "Neftçilər Günü" Ulu Öndər Heydər Əliyevin Azərbaycan neftçilərinə böyük hədiyyəsidir" yazısında müqavilənin imzalanmasına qədər keçilən yoldan, aparılan danışıqlardan, həmçinin "Əsrin müqaviləsi"nin iqtisadi və siyasi əhəmiyyətindən geniş bəhs olunur. Məqalədə qeyd edilir ki, 20 sentyabr günü Azərbaycanın iqtisadiyyatında, ölkəmizin iqtisadi-siyasi və sosial həyatında parlaq bir səhifə açmış Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" yataqlarının birgə işlənməsi üzrə imzalanmış "Əsrin müqaviləsi"nə və Ümummilli Liderin neft-qaz strategiyasını var qüvvə ilə həyata keçirən neftçilərin əməyinə verilən yüksək dəyərin rəmzi oldu.

Xüsusi buraxılışı vərəqlədikcə SOCAR-ın ayrı-ayrı sahələrdə tətbiq etdiyi yeniliklər, təcrübələr, qazandığı uğurlar ətraflı şəkildə ictimaiyyətə çatdırılır. Çoxsaylı məqalələrdə "Neftçilər Günü" ilə bağlı son bir ildə görülən işlərin qısa hesabatı və növbəti ilin hədəfləri açıqlanır.

# Artilleriya bölmələrinin döyüş atışlı təlimləri keçirilib

**Azərbaycan Respublikası Müdafiə nazirinin təsdiq etdiyi 2020-ci ilin döyüş hazırlığı planına uyğun olaraq raket və artilleriya birləşmələrinin döyüş atışlı taktiki təlimləri keçirilib.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimlərin məqsədi artilleriya bölmələrinin idarəedilməsi vərdişlərinin təkmilləşdirilməsi, peşəkarlığın artırılması, döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı fəaliyyətin təşkilidir.

Cəmləşmə rayonlarına çıxarılan artilleriya bölmələri döyüş atışlarını yerinə yetirmək üçün atəş mövqelərini tutublar.

Raket və artilleriya qoşunlarının müxtəlif bölmələri təlimin ssenarisinə uyğun olaraq ehtiyat mövqelərə yerdəyişmə etdikdən sonra döyüş atışlarını yerinə yetirərək şərti düşmən hədəflərini məhv edib.



**◆ Milli maraqlar naminə əməkdaşlıq**

# İslahatların daha da dərinləşməsinin tərəfdarıyıq

*Əvvəli 1-ci səh.*

## Bu, iqtidar-müxalifət münasibətlərinin inkişafına gətirib çıxaracaq



Abutalıb Səmədov öncə onu bildirdi ki, Azərbaycanda siyasi sistemin yeni konfiqurasiyasının formalaşdırılması ideyası Prezident İlham Əliyevə və onun yeni administrasiyasına məxsusdur: "Bu istiqamətdə ilk addımlar atılsa da, koronavirus pandemiyası uğurlu başlayan və cəmiyyətin böyük marağına səbəb olan bu prosesi bir qədər ləngitdi. Yeni siyasi konfiqurasiyanın mahiyyəti, formalaşmaqda olan düzənin özəllikləri barədə ən düzgün, mötəbər sözü şübhəsiz ki, Prezident İlham Əliyev və administrasiyanın Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev deyə bilər.

Mənim düşüncəmə görə, qarşıya qoyulan əsas məqsəd bir tərəfdən, xarici qüvvələr tərəfindən idarə olunan "5-ci kolon" siyasi partiyalarının siyasi proseslərin normallaşmasına mane olan düşmənçilik fəaliyyətinin qarşısını almaq, digər tərəfdən, hakimiyyətə münasibətindən asılı olmayaraq dövlətçilik naminə fəaliyyət göstərmək istəyən partiyaların normal işləməsi, müxtəlif sahələri əhatə edən islahatlarda daha aktiv iştirakının təmin olunması üçün hər cür şəraiti yaratmaqdır".

Partiya sədri onu da qeyd etdi ki, son dövrlər müxalif mövqedə dayanan bir neçə siyasi partiyanın qeydiyyatdan keçirilməsi, administrasiyada müxalifət liderləri ilə keçirilən müzakirələr hakimiyyətin bu istiqamətə - siyasi partiyaların islahatların keçirilməsində yaxından iştirakının təmin olunmasına nə qədər böyük əhəmiyyət verdiyini göstərir: "Ümid edirəm ki, başlanan proseslər müvəffəqiyyətlə başa çatacaq və bu addımlar iqtidar-müxalifət münasibətlərinin daha yüksək səviyyəyə qalxmasına, siyasi partiyaların siyasi sistemdə layiq olduğu yeri tutmasına, müxtəlif istiqamətlərdə keçirilən islahatların aparılmasında yaxından iştirakına gətirib çıxaracaq".

## Təşəbbüs və təkliflər ardıcıl olaraq Prezident Administrasiyasına təqdim edilir

Bu prosesdə, ümumiyyətlə, cəmiyyətin müasirləşən siyasi həyatında Azərbaycan Naminə Alyans Partiyasının hansı təşəbbüslərlə və təkliflərlə çıxış etməsinə gəldikdə qeyd olundu ki, partiyanın kifayət qədər yeni təşəbbüs və təklifləri var və onlar ardıcıl olaraq Prezident Administrasiyasına təqdim edilir: "Bu təkliflər içərisində proporsional seçki sisteminin bərpasından tutmuş inzibati ərazi quruluşunun dəyişdirilməsinə, yeni paytaxtın salınmasına, Dağlıq Qarabağ probleminin həllinə əhalinin yaxından cəlb olunmasına, kütləvi informasiya vasitələrinin işinin yenidən təşkilinə, internet televiziya kanalları sahəsində vəziyyətin təkmilləşdirilməsinə qədər təşəbbüslər var".

Abutalıb Səmədovun sözlərinə görə, yeni siyasi konfiqurasiyanın formalaşması ilə əlaqədar siyasi partiyaların yaxından təmsil olunduğu Prezident yanında Məşvərətçi Dövlət Şurasının yaradılması və bu şurada dövlət həyatının ən mühüm məsələlərinin müzakirə olunması bir tərəfədən dialoqdan imtina edən və xarici qüvvələrin təsiri altında olan partiyaların qaragüruh fəaliyyətinin qarşısının alınmasına, digər tərəfdən dövlətçilik mövqeyində dayanan partiyaların nüfuzunun artmasına xidmət edərdi. "İnanıram ki, karantin bitdikdən sonra bu istiqamətdə cəsarətli addımlar atılacaq və dialoqun tanışlıq, xırda problemlərin həlli mərhələsi ilə bitəcəyini iddia edənlərin nə qədər yanlış düşündüyü sübut olunacaq", - deyə partiya sədri bildirdi.

Abutalıb Səmədov Azərbaycan Naminə Alyans Partiyasının iqtidara, onun fəaliyyətinə, siyasətinə, apardığı islahatlara münasibətdə hansı mövqedə olmasına da aydınlıq gətirdi. Bildirdi ki, rəhbərlik etdiyi partiya 1994-cü ildə təsis edilib və yarandığı gündən Ulu Öndər Heydər Əliyevin siyasi kursunun ən aktiv müdafiəçilərindən olub: "Partiyamız 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdlərinin qarşısının alınması üçün əlindən gələni edib. Biz bu gün də Heydər Əliyev siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin apardığı son dərəcə düzgün siyasəti dəstəkləyirik və ona yardımçı olmaq üçün əlimizdən gələni etməyə çalışırıq. İslahatlara gəldikdə isə, biz müxtəlif sahələri əhatə edən yeniləşmənin daha da dərinləşməsinin tərəfdarıyıq. Düşünürük ki, iqtisadi sahədə sahibkarlığın inkişafı, bank sektorunun yenidən qurulması, kənd təsərrüfatında daha yüksək məhsuldarlığın təmin olunması və regionların inkişafı üçün qətiyyətli addımlar atılmalıdır. İnzibati-ərazi bölgüsünə yenidən baxılmalı və idarəçilikdə səmərəliliyin təmin olunması üçün yeni inzibati-ərazi vahidi - vilayətlər yaradılmalı, heç bir işlə məşğul olmayan aparat işçiləri kəskin şəkildə ixtisar olunmalıdır. Son dərəcə şişmiş mərkəzi icra hakimiyyəti orqanlarında zəruri ixtisarlar aparılmalı, nazirliklərin, dövlət komitələrinin sayı azaldılmalıdır".

## "5-ci kolon" partiyaları yavaş-yavaş sıradan çıxır

Bu gün ən mühüm məsələlərdən biri də müxalifətin yeniləşən siyasi sistemin çağırışlarına cavab verə bilməsi ilə bağlıdır. Bu barədə fikirlərini bölüşən Abutalıb Səmədov dedi: "Hər bir dövlətin siyasi sistemində müxalifət mühüm yer tutur. Sevindirici haldır ki, özünü əsas müxalifət hesab edən "5-ci kolon" partiyaları yavaş-yavaş sıradan çıxır və onların yerini dövlətçilik mövqeyində dayanan qüvvələr tuturlar. Müxalifət iqtidarın alternatividir və onun əsas işi alternativ proqramlar ortaya qoymaq, hakimiyyətin yalnış hesab etdiyi addımlarını tənqid etmək və konstruktiv təkliflər, ideyalar ortaya qoymaqdır. Son zamanlar bu cür müxalifətin ortaya çıxma əlamətləri hiss olunur. Ənənəvi müxalifət isə öz işindədir. Hakimiyyətə gəlmək üçün tələb olunan keyfiyyətlərə - intellekt, xarizma, insanları öz arxasınca aparmaq bacarığı, vətənpərvərlik və s. olmadığına görə onlar xalqın vəziyyətinin ağırlaşmasını, iqtisadi vəziyyətin çətinləşməsini, koronavirusun böyük fəlakətlər gətirməsini arzulayır və mövcud vəziyyəti, problemləri dəfələrlə şişirdərək niyyətlərinə çatmağa ümid edirlər. Bu qruplar dövlətçilik mövqeyində dayanan, dövlətə qarşı deyil, hakimiyyətə qarşı müxalifətdə olan siyasi partiyaları təhqir edir, onları ləkələməyə, bütün vasitələrlə yollarını kəsməyə çalışırlar. Bu cür davranışı özünə rəva bilən partiyaların və siyasi liderlərin bundan sonra dəyişəcəyinə qətiyyən inanmıram, lakin onların tədricən sıradan çıxacağına əminəm".

Partiya sədri qeyd etdi ki, özünü sağlam siyasi proseslərdən təcrid edən, marginallaşan radikal müxalifət partiyaları və qurumlar xarici qüvvələrin tam nəzarətindədir və onların Azərbaycanda heç bir perspektivi yoxdur: "Düşünürəm ki, koronavirus pandemiyası bu partiyalara böyük zərbə vurdu və onların mahiyyətini açıb xalqa göstərdi. Özünü "Demokratik Qüvvələrin Milli Şurası" adlandıran qurumun rəhbərliyinə daxil olan şəxslərin video-konfrans formatında keçirdikləri "siyasi müzakirələrin" respublika ictimaiyyətinə təqdim olunan hissələrində söylənilən iyrənc iddialar məni qətiyyən təəccübləndirmədi. Mən, hakimiyyətə iddia edən, gecə-gündüz Prezident İlham Əliyevi tənqid edən və ona "yol göstərmək" həvəsinə düşən bu "siyasi xadimlərdən" normal heç nə gözləmirəm. Xalqın böyük əksəriyyəti də belə düşünür və onların hay-küylə elan etdikləri mitinqlərə insanların əhəmiyyət verməməsi görünür bununla bağlıdır.

Gah "üzdəniraq" adlandırdıqları azlıqların, gah da iribuynuzlu mal-qaranın "cinsi məsələlərini" müzakirə edən, siyasi liderlərə "badalaq vurmağın", onlara xidmət etməyən KİV-i sıradan çıxarmağın "yollarını axtaran" şəxslərə xalqın dəstək verməsi mümkün deyil".

## Əhalinin sağlamlığını qorumaq üçün görülən işlər öz bəhrəsini verdi

Partiya sədri ilə koronavirus pandemiyasına qarşı aparılan mübarizə barədə də söhbətləşdik. Abutalıb Səmədov dedi ki, ilk günlərdən Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi altında vaxtında və düzgün addımlar atdı: "Əhalinin sağlamlığını qorumaq üçün görülən işlər öz bəhrəsini verdi. Bütün dünya, ilk növbədə, Ümumdünya Səhiyyə Təşkilatı vətəndaşları qorumaq üçün Prezidentimiz tərəfindən görülən işlərə yüksək qiymət verdi, digər ölkələrə nümunə göstərdi. Bundan sonra COVID-19-a qarşı mübarizədə meydana gələn müsbət tendensiyaları, vətəndaşlarımızın normal həyat tərzinə qayıtmaq istəyini və bütün dünyada yumşalma istiqamətində atılan addımları nəzərə alan dövlət orqanları karantin rejiminin yumşalması barədə qərar verdi.

Çox böyük təəssüf hissilə qeyd etmək lazımdır ki, dövlət vətəndaşları qorumaq üçün hər şeyi etsə də, vətəndaşlarımız arasında COVID-19-un nə qədər təhlükəli olduğunu anlamaq istəməyənlər, infeksiyadan qorunma tədbirlərinə məhəl qoymayanlar hələ də var".

Abutalıb Səmədovun sözlərinə görə, dünya ölkələrinin daha çox özünəqapanma yolu seçərək COVID-19 virusuna qarşı mübarizə apardığı və beynəlxalq təşkilatların fəallığının aşağı düşdüyü məqamda Azərbaycan Prezidentinin təşəbbüsü ilə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və Qoşulmama Hərəkatının Sammitinin keçirilməsi dünyada mühüm hadisə kimi qiymətləndirildi. Xüsusilə, Qoşulmama Hərəkatına üzv ölkələrin ağır problemlərlə üz-üzə olduqları bir zamanda Təmas Qrupuna daxil olan dövlət rəhbərlərinin Prezident İlham Əliyevin təşəbbüsünə yekdilliklə dəstək verməsi Azərbaycanın və onun rəhbərinin beynəlxalq miqyasda yüksək nüfuza malik olduğunu bir daha nümayiş etdirdi. "Qoşulmama Hərəkatının onlayn Zirvə görüşündə Prezident İlham Əliyev çıxış edərək qlobal həmrəyliyin daha yüksək səviyyədə nümayişinə ehtiyac olduğunu xüsusilə vurğuladı. Onlayn iclasda son dərəcə mühüm təşəbbüslə çıxış edən dövlət başçımız beynəlxalq həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsini təklif etdi. Sessiyanın çağırılması üçün 97 ölkənin lehinə münasibət bildirməsi kifayət etdiyi halda, Prezidentimizin təşəbbüsünə 130-a qədər ölkənin dəstək verməsi və bu sessiyasının keçirilməsi beynəlxalq ictimaiyyət tərəfindən ölkəmizə və cənab İlham Əliyevə olan böyük ehtimadın və hörmətin növbəti göstəricisidir", - deyə Abutalıb Səmədov bildirdi.

Abutalıb Səmədovun ölkəmizdə həyata keçirilən korrupsiyaya qarşı mübarizə tədbirləri barədə fikirlərini də öyrəndik. Partiya sədrinin sözlərinə görə, bir neçə rayonun icra hakimiyyəti başçılarının həbsi, ayrı-ayrı dövlət orqanlarında aparılan əməliyyatlar Azərbaycan Prezidentinin icra strukturlarını iflic edən korrupsiya hallarına qarşı ən kəskin addımlar atmaq qətiyyətini nümayiş etdirdi: "Dövlət başçısının vəzifəyə təyinat zamanı verdiyi tövsiyələrdən, dəfələrlə etdiyi xəbərdarlıqlardan nəticə çıxarılmaması bu cür ağır qərarların verilməsini məcburi etmişdir. Uzun müddət rəhbər vəzifələrdə xidmət göstərən, dövlət tərəfindən təltif olunan insanların həbs olunaraq cinayət məsuliyyətinə cəlb edilməsi Prezident İlham Əliyevin dövlətin, xalqın maraqlarını hər şeydən üstün tutduğunu göstərdi. Bütövlükdə, yüksək vəzifə tutan şəxslərin həbs olunması göstərdi ki, Prezident İlham Əliyev korrupsiyaya qarşı müharibə elan etmişdir. Bu vəziyyətdə hər bir siyasi partiyanın borcu bu mübarizədə dövlət başçısının yanında olmaqdır".

Ölkədə son vaxtlar iqtisadi sferada atılan addımlara da toxunan partiya sədri bildirdi ki, yeni iqtisadi islahatları dövlətimiz və xalqımız üçün son dərəcə dəyərli hesab edir: "İnanırıq ki, yaxın vaxtlarda bu istiqamətdə atılan yeni addımlar öz bəhrəsini verəcək. Bu kimi tədbirlər iqtisadi potensialımızın artmasına, əhalinin sosial müdafiəsinin yüksək səviyyədə təmin olunmasına gətirib çıxaracaq".

***Söhbəti yazdı:***
***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Suraxanı rayonunda “Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

**Sentyabrın 23-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən “Bizim həyət” layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.**



AZƏRTAC xəbər verir ki, üç həyəti birləşdirən məhəllə Suraxanı rayonu, Hövsan qəsəbəsi, Elçin Məmmədov küçəsi, 3A, 4, 4A, 5, 5A, 5B, 5V ünvanında yerləşir və 3 min nəfərə yaxın sakinin yaşadığı binaları əhatə edir.

“Bizim həyət” layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların genişləndirilməsi, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov KİV nümayəndələrinə müsahibəsində bildirib: “IDEA İctimai Birliyinin “Bizim həyət” layihəsi ətraf mühitin mühafizəsi və insan sağlamlığının qorunması məsələsinə daim önəm verən təşkilatın təsisçi və rəhbəri Leyla Əliyevanın xüsusi diqqət yetirdiyi bir layihədir. Pandemiyanın davam etdiyi bir dövrdə insanların açıq havada, daha yaxşı məkanlarda vaxt keçirməsi məsələsi daha da böyük əhəmiyyət kəsb edir. Odur ki, karantin rejimi ilə bağlı bir sıra məhdudiyyətlər aradan qaldırıldıqdan dərhal sonra təmir-bərpa işləri davam etdirilib. Hazırda Bakı şəhərinin müxtəlif yerlərində rekonstruksiya işləri davam etdirilir və fəal işlər aparılır”.

Abadlaşdırılan növbəti həyətlərdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti də nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları salınıb. Yeni həyətlərin ərazisində 18 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətlərdəki binaların liftləri yenilənib, işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara elektromaqnit kartla giriş sistemi tətbiq edilib. Həyətlərin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 50 ağac əkilib və 6415 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətlərdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.





# İlkin olaraq əhalinin 20 faizinə peyvənd vurulması epidemioloji vəziyyətə effektiv nəzarət üçün kifayət edər

**“Ötən ilin sonundan etibarən dünyaya sürətlə yayılan SARS-CoV-2 virusuna görə yaranmış pandemiya əksər ölkələrin səhiyyə və iqtisadi sistemlərini böhran vəziyyətinə salıb.**



Pandemiya davam etdiyi müddətdə bir çox sərt karantin tədbirləri və müalicə metodları tətbiq edilsə də, güclü mübarizə sistemləri hələ hazır deyil. Yoluxucu xəstəliklərə səbəb olan digər viruslardan fərqli olaraq SARS-CoV-2 virusu gec mutasiya olur, lakin yoluxdurucu gücü artır. Bu vəziyyətdə epidemioloji vəziyyətə nəzarət edə bilmək üçün daha yumşaq karantin tədbirləri və əhalinin hədəf qruplarının vaksinasiyası vacib olur”.

AZƏRTAC xəbər verir ki, bunu TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının SARS-CoV-2 virusuna qarşı vaksinasiya məsələlərinə həsr olunan iclasında deyib.

Onun sözlərinə görə, vaksinasiya üçün ölkənin tələbi üzrə hesablamalar göstərir ki, əhalinin ilkin olaraq 20 faizinə peyvəndin vurulması epidemioloji vəziyyətə effektiv nəzarət etmək üçün kifayət edə bilər. Lakin vaksinlər üzrə vacib tələblər də mövcuddur. Belə ki, vaksinlər effektiv və təhlükəsiz olmalıdır. Vaksin virusa qarşı ən azından 50-70 faiz qoruyuculuq qabiliyyətində olmalıdır. Həmçinin vaksinin kənar mənfi təsirləri minimum səviyyədə olmalıdır.

TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva bildirib ki, vaksinlərin əldə edilməsi üçün iki istiqamət mümkündür. Birinci istiqamət vaksinlərin Azərbaycanda istehsalıdır. Vaksinlərin qısa müddət ərzində hazırlanaraq Azərbaycanda istehsal edilməsi imkanı faktiki olaraq mümkün deyil. İkinci istiqamət istehsalçılarla ikitərəfli danışıqlar və çoxtərəfli platformalarda iştirakdır. Əhalinin 20 faizinin vaksinasiya edilməsi üçün yaranan tələbin həm istehsalçılarla ikitərəfli əlaqələr, həm də çoxtərəfli platformalarda iştirak vasitəsilə qarşılanması məqsədəuyğundur.

TƏBİB-in Tibbi Xidmətlər Departamentinin rəhbəri Firəngiz Əliyeva GAVI CEPI və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yaradılmış COVAX təsisatının əsas məqsədinin COVID-19-la mübarizədə vaksin istehsalını sürətləndirmək və bütün ölkələr üçün ədalətli və əlçatanlıq imkanı yaratmaq olduğunu bildirib. Ən son məlumatlara əsasən, hazırda dünya əhalisinin 2/3 hissəsini əhatə edən 172 ölkə bu təşəbbüsə qoşulub. Onlardan 85 ölkə daha yüksək gəlir səviyyəsinə sahib özünü maliyyələşdirə bilən ölkələrdir. COVAX Təsisatının portfelində hazırda 9 vaksin layihəsi mövcuddur. Bu namizədlərdən 8-i hazırda klinik sınaq mərhələsindədir.

İşçi qrupun üzvü Samir Vəliyevin sözlərinə görə, COVAX təsisatında iştirak üçün iki variant təklif olunur. Həmin variantlar hüquqi mahiyyət baxımından oxşar olsalar da, ilkin ödəniş, satış şərtləri və alıcının üzərinə məcburi satınalma yükünün qoyulması baxımından fərqlənir. Öhdəlikli satınalma alıcının üzərinə vaksinlərin mütləq alınması öhdəliyi qoysa da, daha az ilkin ödəniş tələb olunur. Seçim imkanlı satınalma isə alıcıya vaksinin alınmasında seçim imkanı versə də, ilkin ödəniş, maliyyə zəmanəti və s. kimi digər şərtlər irəli sürülür. Azərbaycan tərəfindən COVAX Təsisatında iştirak üçün öhdəlikli satınalma müqaviləsi seçilib. Müqavilə üzrə Azərbaycan əhalisinin 10 faiz hissəsinin çoxtərəfli formatla vaksinlər əldə etməsi razılaşdırılıb. GAVI tərəfindən bir doza vaksinin orta qiyməti 1.60 ABŞ dolları kimi proqnozlaşdırılır. Hər bir doza üçün isə hər şey daxil olmaqla cəmi məbləğ 10,55 ABŞ dolları kimi hesablanıb. 10 milyon 112 min nəfər əhalinin 10 faiz hissəsi üçün iki dozalıq vaksin sifarişi üzrə yekun ödəniş 21 milyon 336 min 320 ABŞ dollarıdır. Öhdəlikli satınalma variantında ilkin ödəniş daha azdır. Müqavilə şərtlərinə görə, hökumət və ya Mərkəzi Bank tərəfindən maliyyə təminatı verilməlidir.

Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının üzvləri vaksinasiya məsələlərinə dair təqdimatı yüksək qiymətləndirib və ayrılan vəsaitlərin kifayət qədər əsaslı olduğunu bildiriblər. Onlar təqdimatda risklərdən qorunma məsələlərinin də öz əksini tapdığını vurğulayıblar. Şuranın üzvləri vaksinlərin alınması üçün vəsaitin ayrılmasını dəstəkləyiblər.

# Vətəndaşların sağlamlığı dövlətin əsas prioritetidir

## Qısa zamanda səhiyyə infrastrukturunun COVID-19-la mübarizəyə istiqamətləndirilməsi pandemiyaya qarşı sipər oldu

**Azərbaycanda yeni növ koronavirusa qarşı hərtərəfli mübarizə davam etdirilir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, bütün sahələrdə pandemiyanın qarşısının alınması istiqamətində qabaqlayıcı və zəruri tədbirlər həyata keçirilir. Görülən tədbirlər infeksiyanın nəzarət altında saxlanmasına, əhalinin təhlükəsizliyinin, sağlamlığının və rifahının təmininə yönəlib.**

Ölkəmizdə planlaşdırılmış düzgün fəaliyyət sayəsində qısa zamanda səhiyyə infrastrukturunun koronavirusla mübarizəyə istiqamətləndirilməsi pandemiyaya qarşı sipər oldu. Maska istehsalı müəssisəsinin açılması, yeni laboratoriyaların təcili olaraq alınıb gətirilməsi, qısa zamanda COVID-19 virusuna yoluxmuş şəxslərin müalicəsi ilə bağlı xəstəxanaların müəyyən edilməsi, o cümlədən ən müasir standartlara cavab verən “Yeni klinika”nın koronavirus xəstələrinin ixtiyarına verilməsi, sözün əsl mənasında, pandemiya ilə mübarizədə müsbət nailiyyətlər əldə olunmasına böyük töhfələr verdi. Təsadüfi deyil ki, hazırkı dövrə qədər 36 mindən çox vətəndaşımız müalicə olunaraq sağalıb.

Koronavirus xəstələrinin dövlət hesabına müalicəsi, həkimlərin sayının artırılması və təcrübə mübadiləsi məsələləri də kompleks şəkildə həll olunur. Azərbaycana beş ölkədən - Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlib və onlar koronaviruslu xəstələrin müalicəsi istiqamətində kömək göstərirlər.

### Yeni təcili tibbi yardım avtomobilləri alınıb

Koronavirusla mübarizə çərçivəsində tibbi xidmətlərin keyfiyyətinin daha yüksək səviyyəyə çatdırılması, bu sahədə maddi-texniki bazanın möhkəmləndirilməsi, o cümlədən yeni təcili tibbi yardım avtomobillərinin təminatı vacib amillərdəndir.

Dövlət başçısının tapşırığı ilə bu sahədə bütün lazımi işlər görülüb və görülür. Yeni sifariş olunan təcili tibbi yardım avtomobillərinin ilk hissəsi iyul ayında, növbəti hissəsi isə bu ay gətirilib. Sentyabrın 22-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən ölkəmizə yeni gətirilən təcili tibbi yardım avtomobilləri ilə tanış olublar.

Bu avtomobillər həm sadə, həm də reanimobil kimi dəstləşdirilib. Ambulansların salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir.

### Modul tipli daha 7 xəstəxananın tikintisi də nəzərdə tutulub, amma...

Pandemiya ilə mübarizə istiqamətində atılan addımlar sırasında modul tipli xəstəxanaların inşasının müstəsna əhəmiyyəti var. Bu tip xəstəxanalar koronavirusa yoluxanların lazımi tibbi xidmətlərlə əhatə olunmasında vahid idarəetmə və tibbi əlaqələndirmənin təmin edilməsi baxımından böyük rol oynayır.

Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının videoformatdakı açılışındakı çıxışı zamanı Prezident İlham Əliyev məlumat verdi ki, pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır: “Bu məqsədlər üçün böyük vəsait ayrılmışdır, bütün imkanlar səfərbər edilmişdir. Çünki mövcud çarpayı fondu imkan vermirdi ki, biz bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparaq. Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırılmışdır. Ölkəmizin ən gözəl və ən müasir xəstəxanası - “Yeni klinika” açılmışdır. “Yeni klinika”da çarpayıların sayı 600-ə yaxındır. Hazırda təqribən 400-ə yaxın çarpayı hazır vəziyyətdədir. Bununla bərabər, modul tipli 11 xəstəxana inşa edilmişdir. Bu xəstəxanalarda çarpayıların sayı 4100 səviyyəsindədir”.

Hazırda respublikamızda COVID-19 xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir və həmin xəstəxanaların 41-i son 17 il ərzində inşa edilib. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə və şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Gələcəkdə modul tipli 7 xəstəxananın tikintisi də nəzərdə tutulub. Lakın hazırda ölkədə xəstələrin sayı azaldığı üçün buna lüzum görülmür. Əgər ehtiyac yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa oluna bilər.

### Minlərlə insanın həyatı qorundu

Azərbaycanın pandemiyaya qarşı hərtərəfli mübarizəsi bu sahədə aparıcı beynəlxalq təşkilat olan Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də yüksək qiymətləndirilir. Qurum dəfələrlə Azərbaycanı nümunəvi ölkə adlandırıb, hazırda bu istiqamətdə gördüyü tədbirlərin də doğru olduğunu bildirir.

Xüsusilə vurğulamalıyıq ki, vətənimiz COVID-19-la yalnız ölkə daxilində deyil, beynəlxalq səviyyədə də mübarizə aparır. Artıq Azərbaycan 30-dan çox ölkəyə kömək əlini uzadaraq humanitar yardım edib, pandemiya ilə ümumi mübarizəyə böyük töhfə verib.

Göründüyü kimi, ölkəmiz COVID-19-un yayılmasının qarşısının alınması istiqamətində uğurlu fəaliyyət göstərir. Hökumət tərəfindən həyata keçirilən bütün tədbirlər vətəndaşların təhlükəsizliyinin təmin edilməsi, Azərbaycanın hər bir sakininin sağlamlığının qorunması məqsədini daşıyır.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, “Mən bir daha demək istəyirəm ki, görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Hesab edirəm ki, biz buna nail oluruq. Hər şey müqayisə ilə ölçülür. COVID-lə bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr, doğrudan da, çox təsirlidir, çox dəyərlidir. Mən hesab edirəm ki, biz məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatını qoruduq. Qoymadıq ki, xəstəlik geniş vüsət alsın, qoymadıq ki, bu, nəzarətdən çıxsın və bundan sonra da bunu edəcəyik. Nə qədər lazımdırsa, o qədər də edəcəyik. Əminəm ki, birgə səylər nəticəsində, həm də bundan sonra dövlətin qətiyyətli və düşünülmüş ədalətli addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq”.

Son günlərin reallığı odur ki, koronavirusa yoluxanların sayı azalır, sağalanların sayı yüksəlir. Bu, həyata keçirilən effektiv mübarizənin uğurlu nəticəsidir.

***Yasəmən MUSAYEVA,***
***“Azərbaycan”***

# Təhsil Nazirliyi “Arsak” toponiminin mənşəyi ilə bağlı vebinar təşkil edib

**Sentyabrın 23-də Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Arsak” toponiminin elmi mənşəyinə dair onlayn vebinar təşkil edilib. Vebinarda Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun elmi işçisi Ramin Əlizadə və media nümayəndələri iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, vebinarda çıxış edən Ramin Əlizadə “Arsak” toponiminin elmi mənşəyi barədə ətraflı məlumat verib. Bildirib ki, əslində, “Arsak” adı Sak etnonimindən yaranıb, doğru tələffüzü Ərsak olmuş, mənası isə “Sak əri, ərəni” deməkdir. Orta əsrlər dövründə Alban apostol kilsəsinin mərkəzi olan Gəncəsər məbədinin kitabəsində Alban-Xaçın knyazı Həsən Cəlal “Uca və böyük Ərsak ölkəsinin hökmdarı, Alban vilayətinin çarı Böyük Həsənin nəvəsi, Vaxtanqın oğlu” kimi yad edilir. Bu kitabə onun əcdadlarının qədim türk boyuna mənsub olan “Ərsak” soyundan olmasını bir daha təsdiq edir.

Ramin Əlizadənin sözlərinə görə, XVIII əsrdə Qarabağın dağlıq hissəsində yaşayan Alban xristian məlikləri də I Pyotra və II Yekaterinaya yazdıqları məktublarında özlərini “Arşaki soyundan olan Alban türkləri” adlandırıblar. “Arsak” adı bir çox mənbələrdə Arşaki kimi də xatırlanır. Sak etnonimi Cənubi Qafqaz regionunda, o cümlədən Azərbaycan ərazisində, əsasən, yaylaq-qışlaq maldarlığı, dəmyə əkinçiliyi və atçılıqla məşğul olan türk boylarına verilmiş ümumi addır. Azərbaycanın şimalında qədim yazılı mənbələrdə bəhs olunan Sakasena, Balasakan (Sak düzü), Maskut (Massaget) toponimləri, hazırda isə Azərbaycan Respublikasında Şəki şəhərinin, Zaqatala rayonunun, Zəngəzurda Sisakan (Sisian) rayonunun, Şəki kəndinin adları məhz Sak türklərinin adı ilə bağlı olaraq meydana gəlib. Loru-Pəmbək ərazisində Gözəldərə kəndinin türksoylu boylarından biri Ərsaklılar adı ilə tanınırdı.

Ramin Əlizadə qeyd edib ki, “Ərsak” adı ermənicə təhrif olunmuş “Artsax” formasında sonradan elmi dövriyyəyə daxil edilib.

Sonra vebinar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# Azərbaycanda koronavirus infeksiyasından daha 173 nəfər sağalıb, 146 nəfər yoluxub

**Azərbaycan Respublikasında koronavirus infeksiyasından daha 173 nəfər sağalıb, 146 yoluxma faktı qeydə alınıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 39 min 524 nəferin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 37 min 122 nəfər müalicə olunaraq sağalıb, 580 nəfər vəfat edib. Aktiv xəstə sayı 1822 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 73 min 255 test aparılıb. Dünənki test sayı isə 8780-dir.




# Maşınla pambıq yığımına son hazırlıq işləri görülür

Əvvəli 1-ci səh.

Bütövlükdə ötən təsərrüfat ilində 11.936 ton pambıq istehsal edilmişdir. Hər hektardan 34,8 sentner məhsul götürülmüşdür ki, bu da respublikanın pambıqçılıqla məşğul olan rayonları arasında ən yüksək göstəricidir.

Tərtər pambıqçıları bu il daha yüksək zirvələr fəth etmək əzmindədirlər. Cari ilin məhsulu üçün 2981 hektar sahədə pambıq əkilmişdir. Bütövlükdə pambıqçılıq sahəsində çalışan əməkqabiliyyətli əhalinin də sayı əvvəlki illərlə müqayisədə xeyli artmışdır. Müqavilə əsasında pambıq əkib-becərən torpaq istifadəçilərinin sayı isə 1033 nəfərdir.

Artıq havadan payızın nəfəsi duyulur. Yavaş-yavaş ağ örpəyə bürünən geniş tarlalar bol məhsuldan xəbər verir.

Rayonun qabaqcıl fermerlərinin - Bəyimsarov kəndində Fazil Vəliyevin, Qaynaq kəndində İlqar Həsənovun, Köçərli kəndində Elmar Məmmədlinin, Ələsgərli kəndində Fuad Familzadənin, Seyidli kəndində Rövşən Məmmədovun rəhbərlik etdikləri kollektivlər məhsul yığımına son hazırlıqlarını görür. Ötən illərdə olduğu kimi, məhsul yığımında yenə texnikaya geniş meydan veriləcək. MKT Tərtər filialında 9, “Azərpambıq”ın Tərtər filialında isə 5 pambıqyığan maşın keyfiyyətlə təmir edilib start xəttinə çıxarılmışdır.

Cəbhə bölgəsi olan Tərtərdə kənd təsərrüfatı məhsulları istehsalı sahəsində qazanılan nailiyyətlər xüsusi əhəmiyyət kəsb edir. Ona görə ki, nankor qonşularımız illərdən bəri işğal altında saxladıqları Sərsəng su anbarından əkinlərin suvarma suyuna ciddi ehtiyac duyulduğu yaz-yay aylarında Tərtər çayının yatağına su buraxmamaqla rayonun təsərrüfatları üçün böyük problemlər yaradırlar. Dövlətin cəbhə bölgələrinə davamlı qayğısı sayəsində Tərtər kəndlisi bu çətinliklərdən nisbətən daha az itkilərlə çıxa bilir. Prezidentin imzaladığı sərəncamla hər il Tərtər rayonu ərazisində yeni subartezian quyuları qazılır. Hazırda dövlət vəsaiti hesabına daha çox ehtiyac duyulan ərazilərdə 21 yeni subartezian quyusu qazılır.

Onu da qeyd etmək lazımdır ki, Tərtər Subartezian Quyularının İstismarı İdarəsinin kollektivi cari təsərrüfat ilində gücləndirilmiş rejimdə işləmiş, torpaq istifadəçilərinin sudan korluq çəkməsinə imkan verməmişdir. Nəticə isə çox yaxşıdır. Suya tələbkar olan pambıq tarlalarının dördüncü suvarması başa çatmaq üzrədir. Bu o deməkdir ki, pambıq kollarında yetərincə bar orqanları formalaşıb. Bu isə bol məhsulun, yüksək məhsuldarlığın əsas şərtidir.

***Lazım QULİYEV,***
***“Azərbaycan”***


# Salyan Rayon İcra Hakimiyyəti 2020-ci ildə Salyan rayonunda kənd yollarının cari təmirinin satın alınması (yollara çınqıl səpilməsi) məqsədilə *açıq tender elan edir*

**Salyan rayonunda kənd yollarının cari təmirinin satın alınması (yollara çınqıl səpilməsi)**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının analoji işlərdə təcrübəsi, təmir-bərpa işləri üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lotlar üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Portal vasitəsilə ala bilərlər. Əlaqələndirici şəxs: Lalayev Mahir İdris oğlu, telefon: 0-21-255-50-23.

**İştirak haqqı: 800 manat**
**Təşkilat: Salyan Rayon İcra Hakimiyyəti**
**Salyan 17 saylı Regional Maliyyə İdarəsi**
**Hesab: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Salyan Rayon İcra Hakimiyyəti**
**Hesab: AZ36CTRE00000000000002513131**
**VÖEN: 7000028611**
**İştirak haqqı heç halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

*1. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*2. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*3. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*4. İddiaçının (podratçı) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:*
*4.1 iddiaçının (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*4.2 iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*4.3 iddiaçının (podratçının) ixtisas göstəricilərinə dair məlumat (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim edilməlidir);*
*5. Azərbaycan Respublikasında vergilərə və sosial sığorta ödənişlərinə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*6. Vergilər Nazirliyi tərəfindən həmin iddiaçının işçilərinin sayı, əmlakları, avadanlıqları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış.*

İddiaçılar (podratçılar) tenderdə iştirak etmək üçün 1 və 4-cü bəndlərdə göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **14 oktyabr 2020-ci il saat 10:00-a** kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər.

Tender təklifi və bank zəmanətini isə **22 oktyabr 2020-ci il saat 10:00-a** qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaq. İddiaçıların təklifləri **23 oktyabr 2020-ci il saat 10:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi
## Yeni peşə və kvalifikasiya standartlarının hazırlanması və mövcud peşə və kvalifikasiya standartlarının yenilənməsi xidmətlərinin satın alınması ilə əlaqədar
### *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 400 (dörd yüz) manat**
**Satınalan təşkilat: Dövlət Məşğulluq Agentliyi**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT CTREAZ22**
**H/hesabı: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti **(2019-cu il üzrə maliyyə hesabatının surəti tələb olunur);***
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat **(malgöndərən uçotda olduğu statistika orqanından alır);***
- *iddiaçının son 12 aydakı maliyyə vəziyyəti haqqında bank arayışı **(01.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);***
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovunun olmaması, məhkəmənin qərarı ilə fəaliyyəti dayandırılmış şəxs olmaması;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi **(malgöndərən (podratçı) Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən (məhkumluq ilə bağlı arayış) alır);***
- *tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12.10.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **22.10.2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **23.10.2020-ci il saat 15:00-da** açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 28.07.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün korporativ stil mallarının satın alınmasına dair tender üzrə Tender komissiyasının 03 sentyabr 2020-ci il tarixli qərarına əsasən, "Promo plus" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Dövlət Pedaqoji Kolleci
## Digər maşın və avadanlıqların
## kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar **+99412 537-22-01** telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 23.09.2020-ci il saat 12:30-dan 25.09.2020-ci il saat 16:00-dək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, İnşaatçılar prospekti, 45**
**Telefon: +99412 537-22-01**
**E-mail: a.ramiz@adpk.edu.az**

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə
## Müvəkkili (Ombudsman) Aparatı
## İnventarların kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 28 sentyabr 2020-ci il saat 17:00-dək qəbul olunur.

Kotirovka sorğusunun təklif zərfləri 29 sentyabr 2020-ci il saat 11:00-da Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 80 nömrəli ünvanda açılacaqdır.

Maraqlanan qurumlar əlaqələndirici şəxs Qasımov İsgəndərlə - (012) 493-88-14, (050) 275-19-91 nömrəli telefonlarla və ya **qasimovi@mail.ru** email ünvanı ilə əlaqə saxlaya bilərlər.

***Tender komissiyası***

## Ləğv prosesində olan ASC "Standard Insurance"
## Sığorta Şirkətinin kreditorlarının nəzərinə

Azərbaycan Respublikası Bakı Kommersiya Məhkəməsinin e-2-2(113)-1575/2020 saylı, 29 iyul 2020-ci il tarixli qətnaməsi ilə ASC "Standard Insurance" Sığorta Şirkətinin müflis elan edilməsi qərara alınmışdır. Həmin məhkəmənin 17 avqust 2020-ci il tarixli qərarına əsasən, sığortaçının ləğvetmə komissiyasının tərkibi müəyyən edilmişdir.

"Müflisləşmə və iflas haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə əsasən, əmlak inzibatçısı təyin edildikdən sonra dərhal bu barədə borcluya bildiriş göndərməli və borclunun iflası və özünün təyin edilməsi barədə Azərbaycan Respublikasında nəşr olunan rəsmi dövri mətbuat orqanında azı 7 günlük fasilə ilə iki dəfə elan etdirməlidir.

İstinad olunan qanunun 43.2-ci maddəsinə əsasən, "kreditorlar borcluya öz tələblərini bu qanunun tələblərinə müvafiq surətdə borclunun müflis olması barədə bildiriş dərc edildiyi tarixdən ən geci 60 gün keçənədək yazılı şəkildə verə bilərlər". Odur ki, iflas prosesində olan ASC "Standard Insurance" Sığorta Şirkətinə qarşı tələbi olan fiziki və hüquqi şəxslər bu elanın dərcindən 60 təqvim günü ərzində tələblərini şirkətin ləğvedicisinə yazılı şəkildə təqdim etməlidirlər.

Əlavə məlumat almaq üçün aşağıdakı ünvana müraciət edə və ya aşağıda göstərilən telefon nömrələri, elektron poçt vasitəsi ilə əlaqə saxlaya bilərsiniz:

**Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Ş.Bədəlbəyli küçəsi, 96**
**Əlaqə telefonu: +994 12 930**
**Email: office@standardinsurance.az**

***İdarə Heyəti***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 23.09.2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün boyalar, lak və boya məmulatlarının satın alınması üzrə iddiaçıların sayı 3 (üç)-dən az olduğuna görə tender baş tutmamış hesab olunmuş və davamından imtina edilmişdir.

***Tender komissiyası***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
## *qəzetinə abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*1 aylıq*
10,40 (on manat qırx qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

## ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azərbaycan Respublikası Təhsil Nazirliyinin
## Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi
### *açıq tender elan edir*

Tender 7 (yeddi) LOT üzrə keçirilir:

**LOT - 1** Ağcabədi rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması
**LOT - 2** Qəbələ rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması
**LOT - 3** Oğuz rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması
**LOT - 4** Uçar rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması
**LOT - 5** Şəki rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması
**LOT - 6** Balakən rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması
**LOT - 7** Zaqatala rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 200 (iki yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. IBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **14 oktyabr 2020-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **22 oktyabr 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsi ilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 oktyabr 2020-ci il saat 11:00-da** Elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 11 və 13 avqust 2020-ci il tarixli nömrələrində və dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən dərc edilmiş elanlar üzrə keçirilən təkliflər sorğusunda İçməli suyun (19 litrlik bidon və müqavilə müddəti ərzində dispenserlərlə təminat daxil olmaqla) satın alınması üzrə "İkar Qrup" MMC, Ərzaq mallarının satın alınması üzrə isə "Fresh Foods Supply" MMC qalib olmuşdur.

Qalib şirkətlərlə 21 sentyabr 2020-ci ildə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

Hüseynov Eminalı Hökuməli oğluna məxsus Cəlilabad rayonu Hamaraqışlaq kəndində yerləşən Hamaraqışlaq Üzüm Emalı İcarə Müəssisəsinə 11.08.2000-ci ildə Azərbaycan Respublikası Dövlət Əmlakı Nazirliyi tərəfindən verilmiş Şəhadətnamə (Qeydiyyat №000235) itdiyi üçün etibarsız sayılır.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**


## ALLAH RƏHMƏT ELƏSİN!

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Masallıdan Şahin Məmmədov Masallı rayon prokuroru Vəli Mustafayevə atası

**İBRAHİM MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı Elxan Kərimova əzizi

**GÜLLƏR KƏRİMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aslı Memarlıq" şirkətinin rəhbərliyi Milli Məclisin deputatı Ağalar Vəliyevə anası

**QARAGÖZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7644
Sifariş 2225
Qiyməti 40 qəpik